**SVETLANA ŞAMİL**

# GEDİRƏM ŞUŞAYA...

**Bakı - 2022**

*Redaktor:*
Məhəmməd NƏRİMANOĞLU

*Korrektor:*
Aydan Abbaslı

Svetlana ŞAMİL, «Gedirəm Şuşaya...», şeirlər, (təkrar nəşr). Bakı, «İmza» Nəşrlər Evi, 2022. 204 səh. şəkilli

*Kitabda müəllifin gənclik duyğuları ilə yanaşı, Vətənə, anaya, doğma Qarabağımıza həsr etdiyi vətənpərvərlik duyğularından ibarət lirik hisslərinin pıçıltıları toplanıb. Geniş auditoriya üçün nəzərdə tutulmuş kitab müəllifin oxucularla ilk görüşü deyil. Elmi nəşrlər arasında Svetlana Şamilin alim kimi də bir neçə tədqiqi əsəri işıq üzü görüb.*

*2011-ci ildə nəşr olunmuş kitab əsasında hazırlanmışdır.*

İSBN:

© S.Şamil 2011, 2022

# MÜƏLLİFDƏN

*Əziz oxucu, bu kitabın işıq üzü görməsinə səbəb mənim yaxın dostlarım, qohumlarım olub. Mən şair deyiləm, heç vaxt da bu iddiada olmamışam. Lakin poeziya vurğunu olduğum üçün məni narahat edən, qəlbimi incidən, ruhuma işləyən həyat və təbiət hadisələri hisslərimə son dərəcə təsir edəndə, xatirəmdə dərin izlər qoyanda, dözə bilmədiyim hallarda, ürəyimi misralara boşaltmağa çalışmışam. Xüsusilə Şuşa yanğısı məni daha çox təsirləndirib,-desəm daha doğru olardı. Bu yanğı və həsrət, düşünürəm ki, heç yerə-göyə sığmaz, nəinki mənim ovuc boyda ürəyimə… Bu, mənim ömrümdən keçən ən ağır və çətin bir qara xətdir ki, qismətmə, taleyimə düşüb…*

*Qələmə aldığım bu misralara şeir deyən oxucularıma təşəkkürümü bildirir və onlara deyə bilərəm ki, mən bunları həmişə yabanı bitən və gözümü oxşayan dağ çiçəklərinə bənzətmişəm. Mən onları bəstəməmişəm, nazını çəkməmişəm, körpə kimi əzizləməmişəm, əksinə, qəlbimin ağrılarını, gözlərimin yaşını, hamıdan gizli saxladığım dərdlərimi onlara pıçıldamış və dərdləndirmişəm. İndi hiss edirəm ki, mənim çəkdiklərimi onlar da az çəkməyib. Ona görə boynubükük bənövşəyə, lilpara, bağrı qan laləyə bənzəyirlər, baxmayaraq ki, çayqırağı bitən yarpız kimi, qayalardan qorxmayıb sıldırımlarda cücərən kəklikotu kimidirlər…*

*Yaşımın bu çağında onları sizin qənşərinizə çıxarmağımın özündə yəqin ki, bir təvazökarlıq tapacaqsınız. Alim elmlə məşğul olar. Amma, alim ilk növbədə insandır – həssas, kövrək, duyğulu…*

*İnsan taleyində ümumiliklər çoxdur. Əgər bu sətirlərdə kimsə özünün müəyyən qədər taleyini taparsa, misralarım kimisə təsirləndirəcəksə, qoy olsun. Bunlar mənim ruhumun səsidir. Məni çox da məzəmmət etməyin. Onlar mənim həyatımın kodlaşdırılmış inteqralı və sətiraltı fəlsəfəsidir. Demirəm ki, onları açmağa çalışın, sadəcə, məndən içəridəki məni görmək üçün, bütövlükdə Qarabağın, Şuşanın, Zəngəzurun, əlimizdən zorla alınmış cənnət-məkanların ağrılarının rəngini görmək istəyirsənsə, vərəqlə bu kitabı, əgər ona kitab nəzərləri ilə baxa bilsən.*

*Mən bir alim ömrü yaşadım. Yaşadımmı?! Yaşım qədər yaşamamışam, bunu qədərincə qədrini bilmədiyim qəlbim və ruhum bilir…*

*İstərdim ki, bir-birimizə səmimi olaq. Bu gün, yəni kitabın nəşrə hazırlandığı vaxtlarda sözün az qala çəkisi də, ölçü-biçisi də mizan-tərəzisini itirib. Sayı sanbalından çox olan kitablardan biri kimi qəbul olunacaqsa, min təəssüf, amma, güman edirəm ki, əvvəldən də qeyd etdiyim kimi, mən şairlik iddiasında olmadım, bu da ömrün bir «şıltaqlığıdır»:*

Həyat oyun, bir uduş,
Bir qəlbsizə oldu tuş,
İstəklərim oldu puç,
Ömür sanki bir uçuş,
Sınıq qalan rübabım,
Mənim ömür kitabım.

*Əziz oxucu, məncə, söz insanlığın ən böyük kəşflərindən biridir. Sözü ilahiləşdirən isə tarix boyu söz adamları olublar. Bəlkə də bu belə deyil. Bununla razılaşmayanlar da tapılar, bu, mənim subyektiv fikrimdir. Lakin uzun illər sözlə çalışdığımdan bu qənaətə gəlmişəm. Demək olar ki, sözün sematikasından tutmuş, onun konteksdəki məna və məramına, tərkibinə, qrammatikasına, ifadə tərzinə və s. qədər keçdiyi yolu elmi araşdırmalarımda və az da olsa, poetik məqamlarda açmağa çalışmışam.*

*Bilmirəm, bundan sonra deyəcəklərim demək istədiklərimdir, yoxsa, sənin gözlədiklərin, əziz oxucu! Hər nədirsə, yazanı mən, yozanı sən oldun, Allah amanatı!*

# ÖN SÖZ ƏVƏZİ

Sözün dəyəri onun qədir-qiymətini qədərincə bilməkdən keçir. Söz o zaman su kimi lətafəti olur ki, onu artıq dərd verən su kimi işlətməyəsən. Söz o zaman dəyərdən düşür ki, onun qədri qədərincə bilinmir.

İndiyə kimi yaşadığım ömrümün (əgər buna yaşamaq demək mümkünsə, axı, düz on səkkiz ildir ki, didərgin, məcburi köçkün həyatı yaşayıram) bir çox anlarında mən də bəzən, nəyinsə xatirinə Sözün qədrini qədərincə qiymətləndirə bilməmişəm. Lakin Söz Tanrıdan və Anadan gəldiyi üçün O, alidir, müqəddəsdir. Gərək onun nazını çəkəsən, qədrini biləsən.

Sözü ilə tanış olduğumuz insanların özləri barədə bir çox hallarda heç nə bilmirik və onları dünyanın bəxtəvəri, dərd-səri olmayan, xoşbəxtləri sanırıq. Doğrudanmı onlar Sözün keşiyini təkcə qələmləri ilə deyil, həm də zəngin qəlbləri və qəribəlikləriIə çəkirlər? Söz adamı olmadan bunları söyləmək çətindir. Onların adi həyatdan kənarda bir dünyaları olur ki, qapılarını ancaq fitrətdən gələn ilahi təb aça bilir. Bu mənada hər kəs Söz adamı barədə söz deməyə cəsarət etmir, lap elə bu sətirlərin müəllifi kimi.

Söz ipək kələfi olduğu kimi, həm də zəhərlə sulanmış xəncərə də çevirilə bilir. Belə olmasaydı, dahilərin fikir dünyasında söz su kimi lətafətə çevrilməzdi. Sözü qədərində işlətmədikdə, qədir-qiymətini bilmədikdə özü ilə bərabər müəllifini də hörmətsiz edir. Amma, nə yaxşı ki, Sözün keşiyini çəkən, onun nazından və qəzəbindən mənən zənginləşən söz adamları zaman-zaman xalqımızın mədəni tarixində barmaqla sayılmayıb. Ümumiyyətlə, Söz millətimizin

və xalqımızın başı üzərində dalğalanıb, müdrikləşib...

Bu bir qədər pafoslu ifadələrin ünvanı da Söz adamıdır, həm də elə Söz adamı ki, təkcə xarakterinə görə deyil, şəxsiyyətinə və qələminə görə də sayılıb-seçilən, ruhu ilə baş-başa qalanda dalğalanan dənizə, əsən mehə və birdən də təpələri vahiməyə gətirən şimşəyə, coşqun dağ çayına bənzəyən.

Çox böyük hörmət etdiyim şair və alim dostum, həmyerlim Adil Cəmilin bir təklifi ilə bu kitabdakı şeirləri diqqətlə oxudum. Məsləhətdən keçmədim. Keçə bilməzdim ona görə ki, ən azı, onu Adil Cəmil mənə təklif etmişdi: «Baxarsan, ağlabatan, redaktəyə gələn bir şey varsa, kömək edərsən», - demişdi.

Qələm dostumun buradakı ədəbi nümunəyə yaxın olan sətirləri, misraları oxuyub-oxumadığından xəbərim yoxdur. Lakin Adil Cəmilin Sözə böyük dəyər verdiyini bildiyimdən, bu şeirlərin əlyazmasını oxudum. Deməzdim ki, feyziyyab oldum. Ən azı, söz adamı şeir oxuyanda dincəlir, mənən qidalanır və ruhu təzələnir. Svetlana Şamilin qələmə aldığı şeirləri oxuyub başa çıxdıqdan sonra qəti əmin odum ki, onun ağrı-acılarını toplayıb bir kitab şəklində nəşrinə kömək etmək savabdır. Burada söhbət poetik ovqata köklənməkdən deyil, bütövlükdə Qarabağın dərd-sərindən, Şuşanın həsrətindən boy verən ah-amandan, düşmənə nifrətdən, anaya məhəbbətdən söz açılır.

Svetlana xanım, əvvəlcədən də qeyd etdiyi kimi, şairlik iddiasında deyil, respublikanın filologiya sahəsində əməyi böyük olan filosof-alimlərindən biridir.

Svetlana xanım qarabağlı, daha doğrusu, şuşalıdır. Dilinin şirinliyi, dərdinin ağırlığı, fikrinin dolaşıqlığı təsdiqləyir ki, Şuşada dünyaya gələn, doğma yurduna həsrət qalan şair-alim xanımın elə dilinin əzbəri Şuşadır, Qarabağdır, bir qədər geniş mənada Azərbaycan, üçrəngli bayrağımızdır.

Mənim belə deməyə haqqımmı çatır?! Bəli, Svetlana xanım Azərbaycanı, böyük mənada isə Türk dünyasını canı-qanı ilə sevir. Belə olmasaydı doğma ana dilinə bu qədər bağlanmazdı. Orta məktəbi sonra, BDU-nu rus dilində bitirməsinə, alimlik dərəcəsi almaq üçün seçdiyi mövzunun rus dilçiliyinə aid olmasına, işlədiyi elmi problemlərin rus dilində ərsəyə gəlməsinə baxmayaraq, heç zaman rusdilli olmayıb. Azərbaycan ədəbiyyatına, onun xalq və aşıq yaradıcılığına qəlbən bağlı olub. Bakı Dövlət Universitetinin Rus filologiyası fakültəsini bitirdikdən sonra D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan İqtisad Universiteti) işləyir. Filologiya elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan İqtisad Universitetinin rus dili kafedrasının fəlsəfə doktoru, bir çox beynəlxalq və respublika miqyaslı elmi-metodiki konfransların, simpoziumların iştirakçısı, elmi məqalələrin, kollektiv dərsliklərin, metodiki göstərişlərin, monoqrafiyaların müəllifidir.

Bu qısa tərcümeyihal, təbii ki, qocaman pedaqoq, şuşalı balası, Qarabağ niskilli ananın, nəhayətdə söz adamının bütünlüklə ədəbi-bədii dünyasını aça bilməz. Ona görə də kitabdakı ədəbi nümunələri oxumaq lazımdır.

Əlbəttə, sözün meydanının genişləndiyi bir dövrdə hamı «atını» bu meydanda səyirtmək istəyindədir. Amma, gərək atminən olasan və mindiyin isə ya Qazaxın dilboz, ya da Qarabağın köhlənlərindən olsun. Fərq eləməz, təki yıxılmayasan. Atın üstündə möhkəm dayanıb çapmaq məharətindir, mənzil başına çatıb-çatmayacağın isə Tanrının qismətidir. Bu mənada Svetlana Şamilin ədəbi-bədii nümunələri arasında diqqətçəkənləri az deyil.

Kitabın adının məhz «Gedirəm Şuşaya…» olmasının səbəbi isə aşağıdakı sətirlərdir, desək daha səmimi alınardı:

*Gedirəm Şuşaya, gedən var, gəlsin,*
*İntiqam almağa gedən var, gəlsin?!*
*Nə qədər «Qarabağ!»,-deyib qışqıraq?!*
*Nə qədər «Qarabağ...»,-deyib hıçqıraq?!*
*Daha bəsdir şəhidlərə yas saxlamaq,*
*Gedib qəbirlər üstə zülüm-zülüm ağlamaq.*
*Şəhidlərin qanını almaq vaxtıdır!*
*Alçaq ermənini başa salmaq vaxtıdır!*
*Gedirəm Şuşaya, namus dalınca,*
*Gedirəm Şuşaya, qeyrət dalınca,*
*Gedirəm Şuşaya, üsyan etməyə,*
*Qələbə qazanıb bayram etməyə,*
*Gedirəm ruhları sevindirməyə,*
*Ölmüş arzuları mən diriltməyə,*
*Gedən var, gəlsin!*

Bir qələm və söz adamı kimi müəllifi incidən məqamlar özünün bədii ifadəsini burada tapır, lakin bütün bunları alim-müəllimin şairlik iddiası saymaq olmaz. Onu daxilən incidən bəzi incə məqamlar var ki, onların üstündən sakitcə keçməyi lazım bildim. Doğrudan da söz adamlarının qəlbi dərya kimidir, dalğalandırdınsa və o dəryada qəvvas ola bilmirsənsə, təəssüf.

Svetlana Şamil həm də anadır, tək qızının anası, canından artıq sevdiyi, lakin bəzi səbəblərdən sevincini gizlədən nənədir. Nənə kimi nəvələrinə bəslədiyi məhəbbət və şirin-şəkər nağıllar da burada nəzmə çəkilir.

Məhəmməd NƏRİMANOĞLU

# Sevincim, kədərim Azərbaycan

# ULU BAYRAQ

«Bir kərə yüksələn bayraq!»
Xalqın azadlıq səsimi?!
Türkçülüyün bir zirvəsi,
Türk soyunun zərrəsimi?!

Ulu bayraq, səni gördüm,
Bir Avropa şəhərində.
Bayraqların sırasında,
Mübarəkdir zəfərin də!

Gəlib çıxdın Avropaya,
Dövlətimi yaşatmaqçün,
Qədim Odlar yurdumuzun
Haqq səsini ucaltmaqçün…

Yaxınlaşıb salam verdim,
Məmləkətin haqq səsini
Yaxın, uzaq diyarlara
Çatdırmağa inam verdin.

Salam dedim, ulu bayraq!
Sənsən fəxrim, həm şərəfim!
Bir sahilin su olsa da,
Yanan oddur üç tərəfin.

Neçə-neçə qərinələr
Zəfərindən versin soraq!
Sənsən bizim qürurumuz,
Möhkəm dayan, ulu bayraq!

# ŞUŞAM

Ayrılığa çox dözmüşəm,
Yuxularımda görmüşəm,
Yad edəndə göynəmişəm,
İndi artıq kövrəlmişəm,
Gözəl Şuşamı görüşmək qayğısındayam.

Yay olanda yaylaqların yada düşər,
Ceyran gözlü bulaqların yada düşər.
Sərin havan, oylaqların yada düşər,
Gözəl Şuşam, həsrət yanğısındayam.

Qış olanda çox gözəl görünərdin,
Qalın qardan ağ kürkə bürünərdin,
Tər-təmiz, saf havanla öyünərdin,
Gül üzünü görmək arzusundayam.

***2006***



# GEDİRƏM ŞUŞAYA!

Gedirəm Şuşaya, gedən var, gəlsin
İntiqam almağa gedən var, gəlsin!
Nə qədər «Qarabağ!»,- deyib qışqıraq?
Nə qədər «Qarabağ!»,- deyib hıçqıraq?
Daha bəsdir şəhidlərə yas saxlamaq,
Gedib qəbrlər üstə zülüm-zülüm ağlamaq.
Şəhidlərin qanını almaq vaxtıdır!
Alçaq ermənini başa salmaq vaxtıdır!
Gedirəm Şuşaya, namus dalınca,
Gedirəm Şuşaya, qeyrət dalınca,
Gedirəm Şuşaya, üsyan etməyə,
Qələbə qazanıb bayram etməyə,
Gedirəm ruhları sevindirməyə,
Ölmüş arzuları mən diriltməyə,
Gedən var, gəlsin!



# ŞUŞADA

O gözəl vətənə düşərsə yolum,
Daş olub, qaya tək qallam Şuşada.
O kiçik həyətdə moruğa dönüb,
Babamın iyini allam Şuşada.

Ay həsrət ürəyim, çırpınma hədər,
Doymadım vətəndən, gəzdim nə qədər.
Bitəm çəmənlərdə dağ gülləri tək,
Torpağa qovuşub qallam Şuşada.

Xeyli vaxtdır düşmənlə giribdı cəngə,
Ayaqlar altında, gəlibdir təngə,
Qayıtmaq arzusu düşübdü ləngə,
Dönərsəm bəxtəvər ollam Şuşada.

Dolandı xəyalım, aşdı başımdan,
Gözəlliklər bir-bir keçdi qarşımdan.
Bu elə həsrətdir, keçir yaşımdan,
Həyatdan kamımı allam Şuşada.

# GÖZ YAŞLARI

Qəlb ağrısıdır,
Ürək yanğısıdır,
Həsrət qayğısıdır,
Göz yaşları.

Ayrılığın özüdür,
Dərdin, qəmin közüdür,
Deyiləməyən sözüdür,
Göz yaşları.

Şəhid vergisidir,
Vətən sevgisidir,
Torpaq itgisidir,
Göz yaşları.

Həm də qələbədi,
Düşmənə həmlədi,
Şuşada sevinmədi
Göz yaşları.

***2003***

# TALE YAZISI

Könül dəftərinə bir yazı düşdü,
Bu tale yazısı məni üşütdü.
Şuşa ayrılığı, Şuşa kədəri,
Canıma hoparaq məni çürütdü.

On ili keçibdir tərkvətənləyin,
On ili keçibdir didərginliyin.
Ümidlə gözləmək mövqesindəyik,
Hərbidir çarəsi bu gərginliyin,

Siyasət əli ilə ara qarışdı,
Bu qalmaqaldan dünya danışdı.
Başsız küləklər tək, köçkün düşənlər
Meşəyə, dağlara, çöllərə qaçdı.

Mərd oğullar müntəzirdir əmrə,
İsti-isti çəkic vuraq dəmirə.
Hiyləgər olsa da, düşmən qorxaqdır,
Vaxtdır, artıq keçməliyik tədbirə!

Gözləyir Qarabağ, gözləyir Şuşa,
Vətən məskən olub indi bəyquşa.
Üzeyir, Natəvan… çağırır bizi,
Vətəndir, anadır, tarixdir Şuşa.

***2002***

# XƏYALLAR

Həsrət yanğısıyla xəyalən bir gün,
Çətin cığırlarla, qayalıqlarla
Ata məzarının ziyarətinə
Qarabağdan keçdim, Şuşaya gəldim.

Uçulmuş, dağılmış qəbiristanlıqda,
Həyacan içində, nigaranlıqda,
Düzümü pozulmuş bir xanimanda,
Ot basmış «çökəyə» haraya gəldim.

Atam giley edib, məni danladı,
Qaçqın elimizi xeyli qınadı:
« Nə vaxtdır bəs niyə yoxsuz, hardasız?
Bilmirəm nə olub, bəlkə dardasız»?

Dedim, əsir düşüb Şuşa ağlayır.
Erməni Şuşada meydan sulayır,
Xaraba evlərdə bəyquş ulayır.
Vətənin on ildir sınıb qanadı,
Ucalır göylərə onun fəryadı.

Deyirəm, can Baba, zaman gələcək,
Sevimli Şuşamız azad olacaq,
Erməni qan töküb, payın alacaq.
Ruhun da bizdən razı qalacaq,
O uçuq məzarın nurla dolacaq.

Səbr elə, qınama, əhdə biz yarıq,
Vətəni düşmənə bağışlamarıq.
Səfəvi nəsliyik, düşmənlə varıq,-
Tökülən qanları yerdə qoymarıq!

***2000***

## AĞLAMA

Əgər dost bildiyin səni satıbsa,
Göz yaşların ürəyinə axıbsa,
Üzüdönük səni oda yaxıbsa,
Ağlama!

Əgər torpağını düşmən alıbsa,
Əgər qız-gəlinlər əsir qalıbsa,
Əgər mərd oğullar şəhid olubsa,
Ağlama!

Mərd ol, düşməninə sən aman vermə!
Torpağın üstünə səril, əyilmə!
Yan od ol, alov ol, amma ərimə,
Ağlama!

***May 1992***



# NƏ GÖZƏLDİR!

Nə gözəldir
Vətənə qurban olmaq!
Sərhəddində dayanmaq,
Vətəni qorumaq,
Vətəndaş olmaq.

Nə gözəldir
Vətəni ana bilmək.
Vətən üçün ölmək,
Torpağına dönmək.
Vətəni bəxtəvər görmək,
Vətən üçün ağlamaq,
Vətən üçün gülmək.



# ŞUŞALILAR

Şuşalılar! Şuşa intizardadı,
Deyir, elim-obam görən hardadı?
Gözəl vətənimiz indi dardadı,
Şuşamızı unutmayın, amandı!

Şuşalılar! Şuşa tapdaq, virandı,
Bu qaçqınlıq, bu köçkünlük yamandı.
İçimizdə od püskürən vulkandı,
Bu od-alov Şuşamızı alandı,
Şuşamızı unutmayın, amandı!

Şuşalılar! Şuşa talan-talandı,
Deyir, xalqım bu hayfı alandı.
El qüdrəti qaranlıqlar yarandı,
Şuşamıza bir hay verin, zamandı!
Şuşamızı unutmayın, amandı!

Şuşalılar! Şuşa oda qalandı,
Şuşa dərdi hər bir dərddən yamandı.
Erməni fitnəsi bizə əyandı,
Şuşamızın tarixi qəhrəmandı,
Şuşamızı unutmayın, amandı!

***1995***

## QARABAĞDAN DANIŞDIM

Zərrə olub kütlələrə qarışım,
Harda oldum Qarabağdan danışdım,
Vətən həsrətindən yanıb-alışdım,
El dərdini ellərə yaymaq üçün.

Düşmən hiyləsi çoxdan tanışdı,
Fitnəsiylə xalqın başı qarışdı,
Didərginlər tale ilə barışdı,
Bu yolda vuruşub qan almaq üçün,
Vuruşla qələbə qazanmaq üçün.

Düşmənin arxasında düşmən dayandı,
Erməni torpağımda yaman yubandı.
Təkləndi, gözəl Şuşa oda qalandı.
Düz əyrini kəsər, hökmü zamandı,
Gec-gücü qəlblərdə yaşatmaq üçün.

Vətən həsrətindən alışıb yandım,
Dərdimin dərmanı Vətəndi sandım.
İmanım, dinim, Vətəndi, andım,
Gedərəm ölümə, Vətəni almaq üçün,
Dözərəm hər cəfaya, Vətənə çatmaq üçün.

# ŞUŞAM OY!

Viran qalan Şuşam oy…
Bir köçəri quşam oy,
Dərdlərinə tuşam oy,
Şuşam, Şuşam, Şuşam oy!!!

Yuvası dağılan oy,
Evləri yıxılan oy….
Arxadan vurulan oy,
Ümidi qırılan oy,
Şuşam, Şuşam, Şuşam oy!!!

Elansız vuruşmada
Mərdləri satılan oy.
Fitnəyə qatılan oy,
Şuşam, Şuşam, Şuşam oy!!!

Qarabağım, Şuşam oy,
Alışıb-yanmışam oy.
Od-alovla gələrəm,
Harayına çatam oy,
Şuşam, Şuşam, Şuşam oy!!!

# ŞUŞA BİZDƏN KÜSÜB

On beş ildir biz Şuşaya getmirik,
yollarından keçmirik.
Ayna bulaqların suyun içmirik,
Şuşasızlıqdan ölüb-itmirik,
Şuşa bizdən küsüb.

On beş ildir harayına çatmırıq,
Nə dərdin çəkirik, nə rahat yatmırıq.
Şuşasız yaşamağın daşın atmırıq,
Şuşa bizdən küsüb.

On beş ildir «Cıdır düzü»nə çıxmırıq,
«Üç mıxa» qalxıb, Şuşaya baxmırıq.
«Səkili bulaqda» ocaq çatmırıq,
Şuşa bizdən küsüb.

«İsa bulağında» büsat qurmuruq,
Qonaq-qara dərələrdə yormuruq.
Dost-tanışın qulluğunda durmuruq.
Şuşa bizdən küsüb.

15 ildir şuşalılar Şuşada doğulmur
Dünyasın dəyişənlər torpağına qoyulmur
Şuşanı qaytarmaq havası duyulmur
Şuşa bizdən küsüb.

Şuşanın gözləyən gözləri yaşlı
Düşmən əlindədi o «başıdaşlı»
Qayıtmaq istəyir cavanlı, yaşlı.
Şuşa bizdən küsüb.

***2007***

# QARABAĞIN MARALISAN?

Sən Şuşadan qovulmusan,
Sən içindən soyulmusan,
Sən çadırda doğulmusan,
Deyirsən ki, şuşalısan?
Heç bilirsən haralısan,
Qarabağın maralısan?

Qaçqın evin indi harda?
Buz bulaqlar uzaqlarda.
Su götürmək yolun arxda,
Gözü yaşlı, qəlb yaralı,
Heç bilirsən, haralısan,
Qarabağın maralısan?

Gözlərinin alovu yox,
Al-yanağın sorağı yox,
Saçlarının qırovu çox,
Unutmusan haralısan,
Qarabağın maralısan?

Təmiz hava axtarırsan,
Dağa həsrətlə baxırsan.
Şuşa deyib oldanırsan,
Bilirsənmi haralısan?
Sən Şuşanın maralısan?..

***2005***

# ŞUŞA DEYİB AĞLADIM

«Şuşa getdi»,- dedilər,
«Ermənіyə verdilər».
İçimdən tufan qalxdı,
Başımda şimşək çaxdı,
Gözümdən sellər axdı.

Atam dünyadan köçəndə,
Ağladığım kimi,
Şuşa deyib ağladım.
Qaçqın anamı itirəndə,
Ağladığım kimi,
Şuşa deyib ağladım.
Köçkün qohumlarımı,
Yaxınlarımı itirəndə
Ağladığım kimi,
Şuşa deyib ağladım.

Əbədi ayrılıqlar içində,
Əbədi ayrılıq olmayan,
Qovuşmaq arzusu solmayan,
Şuşanı sandım.
Bir də görə biləcəyimə inandım,
Təsəlli tapdım.

*1992*

## ON İL ŞUŞASIZLIQ

On il keçdi, ağrılarım min qat çoxaldı.
Qarabağ danışığı uzandı, qaldı.
Yaşlılar qırıldı, cavanlar da qocaldı.
Bu məsələ niyə belə uzandı?

O vaxtkı körpələr indi cavandı,
Qulağımız səsdə, gözümüz yolda.
Cavab gözləyirik xeyli zamandı,
Bu məsələ niyə belə uzandı?

Zəngəzur, Göycə kimi, Qarabağ da getdimi?
Babalardan miras qalan o torpaqlar itdimi?
Yoxsa, geri almaq həvəsimiz bitdimi?
Bu məsələ niyə belə uzandı?

# 20 YANVAR

Göylər qara boyandı,
Torpaq qana bulandı.
Millət qəflən oyandı
Göy guruldadı,
Göydən güllə yağışı yağdı
Bir qara bayram da, beləcə,
vətənimdə yarandı.
Küçələr cəsədlə dolu,
Urus gəlib kəsdi yolu,
Gözümlə gördüm kəsilən qılçı, qolu
«Tırtılın» altında əzik-əzik,
Küçələr meyitlə dolu…
Torpaq qana boyandı,
Bir qara bayram da, beləcə,
vətənimdə yarandı.

***20 yanvar 1990***

# QARABAĞLIYAM

Soruşun haralıyam,
Vətəni satılmış, qolu bağlıyam.
Torpaq itirmişəm, Şuşa haylıyam,
Ürəyi yaralı Qarabağlıyam.
Mən Qarabağ haraylıyam.

Harda olsam, Qarabağ soraqlıyam,
Yol tapa bilmirəm, yolu bağlıyam.
Qürur qoymur zülüm-zülüm ağlayam,
Bilmirəm bu yası harda saxlayam,
Ürəyi çarpaz dağlı Qarabağlıyam.

Soruşun haralıyam!
Namərd gülləsindən mən yaralıyam.
Səması dumanlı, tarixi qanlı,
Xərabə Şuşalı, xarabalıyam,
Sinəsi Şuşa dağlı Qarabağlıyam

***2002***

# BİLMİRƏM

Gözəlim Şuşaya kim qovuşacaq,
Füsunkar hüsnünə kim söz qoşacaq?
Öz ev-eşiyinə kim uyuşacaq,
Kimə qibtə edəcəyəm, bilmirəm.

Həsrət məni gecə gündüz izləyir,
Nə müddətdir Şuşa bizi gözləyir.
Yuxuda da haraylayır, səsləyir,
Bu haraya kim çatacaq, bilmirəm.

Bircə qarış torpağının acıyam,
Qürur qoymur qaçqınlığa acıyam.
Mərd oğullar - «beyni qan» möhtacıyam
Vətən üçün kim öləcək, bilmirəm.

# DÜNYANIN NƏ VECİNƏ

Dünyanın nə vecinə
Onda gözü qalan var.
Ya da, sözü qalan var,
Dünyanın nə vecinə.

Nə qədər itəni var,
Nə qədər bitəni var.
Yarımçıq gedəni var,
Dərdini biləni var.

Dünya öz işindədir,
O, əkin-biçindədir.
Hər nə varsa, dünyada,
Dünya öz işindədir.

# ŞƏHRİYARANƏ

A Şəhriyar, həsrət qaldın Vətənə,
«Dəmir qapı» arxasından bu yanə.
Haray saldın, ayrılığı qınadın,
Uçammadın, sındırıldı qanadın.
Mən bilirəm ayrılığı kim saldı,
Orda-burda kim qırıldı, kim qaldı.

Torpağımız parça-parça böləndü,
Siyasətin mənfur üzü göründü,
El-obamız qaçqınlıqda süründü.
Mən bilirdim itkinlik var, zülüm var
Ayrılıq var, satqınlıq var, ölüm var.

«Sestra»[1] Validə itkin düşübdü,
Zümrüd bacı düşmən tonqalında bişibdi.
Güllər xala Şuşudaca qalıbdı.
Sinəsini erməni gülləsi yarıbdı.
Mən bilirəm qalmaqalı kim saldı,
Kim qırıldı, itkin düşdü, kim qaldı.

Ermənini qonşuluqda görəndə,
Şeytana urusla papış hörəndə,
Torpağıma gözlərini dikəndə,
Mən bilirdim su yerinə qan axacaq,
Rus alayı bizi qırıb çatacaq.

***1991***

[1] tibb bacısı

# HEYDƏR BABAYA ŞİKAYƏT

Heydər baba, dünya yaman dəyişib,
Xalqımız dözüm içində bişib.
Taleyimiz rüşvətə bərk ilişib,
İnanmıram bir gün biz də bayılaq,
Bu dərin yuxudan artıq ayılaq!

Heydər baba, Şuşa bizə dərd oldu,
Vətən getdi, içimizə çər doldu.
Yeni nəsil çadırlarda doğuldu.
Mənliyimiz o torpağa qatıldı,
Pay verildi, erməniyə satıldı.

Heydər baba, taleyimiz gümandı,
Başımızın üstü qara dumandı.
Ərəsətik artıq xeyli zamandı,
Olanımızı əlimizdən aldılar,
Axır bizi yaman günə saldılar.

Ali savadlılar indi göy satır,
Kim harda istəsə bir-birin «atır».
İşsizlər dəstəsi gecə ac yatır.
Kreslo davası indi dəb düsüb,
Elə bil iqtidar millətdən küsüb.

Heydər baba, bir tədbir tök sən bizə,
Bəlkə gedək biz tökülək dənizə?
Harayımız çatmır axı bir kəsə.
«Məclislərdə» ağa qara deyirlər,
Millətin haqqını bölüb yeyirlər.

***1992***

# ERMƏNİ GƏZİR

Qanadı qırılmış sanki bir quşam,
İstərəm qıy vurub Şuşaya uçam.
Qəlbimi bir qeyrət ağrısı əzir,
Şuşanın yolların gör kimlər kəsir,
Cənnət Qarabağda erməni gəzir.

İntiqam hissilə ürək döyünür,
İndi şuşalılar nəylə öyünür?
Gözlərində həsrət, kədər görünür.
Cavan qız-gəlinlər düşübdü əsir,
Gözəl Qarabağda erməni gəzir.

O təmiz havanın şəfalarını,
Yaşıl yaylaqların səfalarını,
Ayna bulaqların saf sularını,
Erməni feyz alır, erməni içir,
Yığılın, qoymayın, erməni gəzir.

Səbrim ümidlidir, hələ ki dözür,
Şuşanı görməkçün ürəyim əsir.
Bu möhnət, hissiyyat qəlbimi əzir,
Vətənim Şuşada, Cıdır düzündə,
Ay ellər, qoymayın, erməni gəzir.

***2001***

# ŞUŞADAN GƏLƏN YOXDU

Şuşadan gələn yoxdu,
Dərdimi bilən yoxdu,
Həsrət-həsrət ağlaram,
Göz yaşım silən yoxdu.

Göyləri qaralıbdı,
Yolları daralıbdı,
Gözüm yolda qalıbdı,
Bir xəbər verən yoxdu.

Görüşmək müşkül oldu,
Dağ çiçəklərim soldu.
«Xarıbülbül» xar oldu.
Sonumu görən yoxdu.

Başı bəlalı Şuşam,
Qəlbi yaralı Şuşam,
Qonaq-qaralı Şuşam,
Gələn-gedənin yoxdu.

***2006***

# NAĞILA DÖNDÜ ŞUŞA

Nağıla döndü Şuşa,
Uşaqlığım, gəncliyim
Nağıla dönən kimi.
Nağıla döndü Şuşa,
Vaqifin məqbərəsi,
Natavanın evilə,
Atamın qəbriylə,
Üzeyirin, Bülbülün,
Xanın şərqisiylə.
Nağıla döndü Şuşa.
Bir elin qaçqınlığı
Həsrətə dönən kimi.
Anam köçkün adıyla
Çöllərə düşən kimi.
Nağıla döndü Şuşa.
Şirin bulaqlarilə
Yaşıl yaylaqlarilə.
O gözəl sürətiylə,
Elin məhəbbətiylə,
Satqınların əliylə,
Düşmənin hiyləsiylə,
Nağıla döndü Şuşa.
Vüqarımız, fəxrimiz,
Adı uca nəslimiz,
Şirin xatiratımız…
İmanımız, dinimiz
Nağıla dönən kimi,
Vətən, Vətən deyərək,
Həsrətdən sönən kimi,
Nağıla dönən kimi,
Nağıla döndü Şuşa,
Nağıl Şuşa…

***Almaniya 2000***

# ORDAN ŞUŞA GÖRÜNÜRMÜ?

Başı qarlı uca dağlar,
Ordan Şuşa görünürmü?
Həsrət ürəyimi dağlar,
Ordan Şuşa görünürmü?
İstərəm bir quş olum,
O qarlı zirvənə qonum,
Görüm Şuşa görünürmü?
Səhər-səhər Daşaltıdan
Qatı duman sürünürmü?
«Üç mıx» ordan görünürmü?
Şuşa işğal altındadı,
Kimsə çarə düşünürmü?
Evimizə «Qrad» düşüb,
Görüm yeri bilinirmi?
Atamın məzarı qalıb,
Görüm gözə görünürmü?
Bahar gəlib o yerlərə,
Görüm torpaq sevinirmi?
Mən Şuşanı itirmişəm,
Toy paltarı geyinirmi?
Ordan Şuşa görünürmü?
Zirvələrə zirvə baxar,
Meşələri, bulaqları
Xatirəmin yanğısıdır.

Şuşamıza tez qovuşmaq
Ürəyimin ən müqəddəs
Arzusudur, qayğısıdır.
Şuşanın indiki halı
Ürəyimin sızıldayan ağrısıdır.
Başı qarlı uca dağlar,
Şuşa ordan görünürmü?
Qatı duman yenə tezdən
Dərələrlə sürünürmü?
Ordan Şuşa görünürmü?

***2000***



# QURBAN OLUM

Vətən! Sənin
ad gününə qurban olum!
Tarixlərdən keçib gələn,
Qəhrəmanlıq
sorağına qurban olum!
Atillana, Babəkinə,
Koroğluna qurban olum!

Damarımda axan qanlar,
Babaların namus-qeyrət,
al qanıdır.
Vətən eşqli, torpaq hissli,
Övladına qurban olum.

Mərd atalar,
mərd analar məskənisən,
Dövlətinin Vətən adlı
torpağına qurban olum!
Ad gününə, şad gününə,
Şirin azəri dilinə,
Başı uca,
mərd elinə qurban olum!
Güneyinə, quzeyinə,
Azadlığın baha olan qiymətinə,
Qarabağ adlı dərdinə,
Təbrizinə,
Zəngəzura, Göyçəgölə,
Xankəndinə,
Parça-parça kədərinə qurban olum!
Hələ təzə, hələ kövrək
addımına qurban olum!

***2002***

# UNUTMAYIN

20 Yanvarda,
«Qara bayram»larda,
Toylarda, yaslarda,
Harda-harda…
Unutmayın şəhidləri!

Qanına qəltan olanları,
Namusa-qeyrətə qısılanları,
Nakam igidləri, nakam qızları,
Səngərlərdə qalan
qəhrəman oğlanları,
«Daşaltı»da qırılanları
Unutmayın!

Vertolyotda yananları,
Satqınlar əli ilə satılanları,
Arxadan atılanları,
Cəsədi tapılanları,
Tapılmayanları
Unutmayın!

Qətlə yetirilən jurnalistləri,
Canını fəda edənləri,
Qarabağ uğrunda gedənləri,
Vətəni canından çox sevənləri
Unutmayın!

«Xatın» - «Xocalı»nı,
Güllə-barana düşən
Uşaqlı – qocalını,
Zaman-zaman aparılan
Soyqırımını,
Unutqanlığımızı
Yazın qan yaddaşına,
Unutmayın!
Unutmayın!

***1993***



# «ŞVARTSVALD» MEŞƏSİ[2]

«Qara Meşə» zolağı
Bürüyübdü dərəni, dağı.
Çayları, göllərilə,
Çəmənləri, güllərilə.
Şəlalələr məftun edir gələnləri,
Bulaqları ceyranlıdır, cüyürlüdür.
Frayburqdan Offenburqa
Ağacları sıralanıb.
Səliqəli – şahmanlıdır,
Elə bil ki, daraqlanıb.
Təbiətlə insan əli
Bu yerlərdə qoşalanıb,
Zövqü-şəfa vəhdətidir.
Bu meşələr qürurludur,
Bu meşələr quruludur.
Xalqın fəxri, sərvətidir
«Qara meşə».
Təpələri qalalıdır, qəsrlidir,
İnsanları əsillidir, nəsillidir.
Cənnət–meşə, sənin tayın
de harda var?..
Qoy mən deyim, Şuşada var,
Şırlanda var, Turşsuda var.
Kəlbəcərdə, İstisuda, Laçında var.

---

[2] *Şvartsvald qara meşə deməkdir*

Qəhər məni boğur,
Baxıb sənə Qarabağı yad edirəm.
Viran qalan o yerləri,
Məhv edilən igidləri,
Dovtələbi, Topxananı,
Daşaltını, Xəlfəlini,
Çarıq bulaq, Malbəylini,
Daha nəyi, daha nəyi…
Baxıb xəyala gedirəm,
Yad edirəm, yad edirəm

***Almaniya 2000***



## SƏN MƏNİ AXTAR

Harda meşə görsən, harda dağ görsən,
Harda çiçək görsən, harda xar görsən,
Harda çəmən görsən, harda bağ görsən
Elə o yerlərdə sən məni axtar.

Bir gün yolun düşsə gözəl Şuşaya,
«Səkili» bulaqda sən məni axtar.
İstəsən görəsən oylaqlarımı,
«Üç mıx»a çıxanda, «Kahada» axtar.

Vətənim, sevgilim, eşqimdi Şuşa
«Xan bağı», «Cıdır düzü», «İsa bulağı»
Əgər yolun düşsə, olsan qonağı
«Daş altı», «Turş suda» sən məni axtar.

Ruhum oralarda ilişib qalıb,
Həsrət gözlərimin arzusu Şuşa.
Deyirlər ki, Şuşa xəraba qalıb
O, xərabalıqda sən məni axtar.

***2002***

# DÜNYADI DƏ ...

# DÜNYA BELƏ DÜNYADIR

Kimə dünya qocadır,
Kimə dünya xocadır,
Kiminəsə fanidir,
Kimə isə anidir,
Kimsəyəsə adidir.
Bəzisinə gözəldir,
Bəzisinə əzəldir.
Gözəlləri min cürdür,
Qocaları bir cürdür.
Dünya birinə cənnət,
Birisinə cəhənnəmdir,
Hamı qonaq gəlibsə,
Getməsi, əcəli var.
Dünya belə dünyadır,
Gələni-gedəni var,
Bu gəlim-gedimlərin
Nə əvvəli, sonu var.
Birinə çox tanışdır,
Biri tanımır onu.
Birinə sonu varsa,
Birinə «yoxdur» sonu.
Qocalara qocadır,
Cavanlara cavandır.
Dünya başdan-ayağa,
Sirrdir, tapmacadır,
Dünya belə dünyadır.

***2004***

# DÜNYA DURACAQ DEYİL

Dünya duracaq deyil,
Lövbərini salasan.
Zaman ömrünü yeyir,
Tələs, bir iz qoyasan,
Dünya duracaq deyil.

Dünya duracaq deyil,
Məskən salıb qalasan.
Əbədi yaşayasan…
Heç vaxt qocalmayasan,
Həmişə cavan olasan.

Dahilər gəlir-gedir.
Dünya duracaq deyil,
Hər gələn köçüb gedir,
Dünya duracaq deyil.

Dünya qaçacaq deyil,
Baş götürüb qaçasan,
Dünyanın qulpu yoxdu,
Qulpundan yapışasan,
İlişəsən, qalasan,
Dünya duracaq deyil.

Dünya qorxacaq deyil,
Xortdana oxşadasan,
Qorxudub kam alasan.
Dünya bir uşaq deyil,
Şirni ilə aldadasan.

Dünya bir qucaq deyil,
Qucağına alasan,
Qucaqlayıb yatasan,
Şirin yuxu tapasan,
Dünya duracaq deyil…

Dünya işinə qarşıma,
Dünya ilə yarışma,
Dünyadan bərk yapışma,
Dünya duracaq deyil.

***2008***



# DÜNYADI DƏ, YAŞAYIRIQ

Böyüyürük arzuların qanadında,
Hər birinə çatmaq üçün yüyürürük.
Bu gün çata bilməyəndə,
Ümidləri sabaha biz köçürürük,
Dünyadı də, yaşayırıq!

Ailə qururuq, övlad böyüdürük,
Gələcəyi uşaqlarda görürük,
Tapa-tapa gəlirik,
İtirə-itirə gedirik.
Nəyisə qurban veririk, nəyisə alırıq,
Dünyadı də, yaşayırıq!

Qeydinə də qalırıq,
Qadasın da alırıq,
Oduna da yanırıq,
Müvəqqəti olduğun
Anan gündən qanırıq,-
Dünyadı də, yaşayırıq!

***2002***

# GƏLİMLİ – GEDİMLİ DÜNYA

Bu dünyaya gələndə də, gedəndə də
Soruşulmur gəlirsənmi, gedirsənmi?
Nə gələndə özxoşuyla gəlir insan,
Nə gedəndə, yaşarkən dərk edəndə
Bu dünyanın enişini-yoxuşunu,
Sevincin də, kədərin də çoxluğunu,
Hər yoxluğun varlığını,
Hər varlığın yoxluğunu.
Bu dünyanın faniliyin bilə-bilə,
Yaşadığı bu dünyanı sevir insan.
Yaşamaqçün hər zillətə,
Hər zülmünə tabe olur,
Dözür insan.
Bu dünyanın ləzzətindən,
Həm varından, dövlətindən,
Gözəlliyin qüdrətindən,
Nə göz doyur, nə də ürək,
Nə gələndə öz xoşuyla gəlir insan,
Nə gedəndə - budur mütləq.

***2002***

# TƏZƏ VƏ TƏKRAR

Cavanlara baxıram…
Hərəsi bir həvəsdə.
Yeni-yeni nəfəsdə.
Kimisi dərsdə,
Kimisi qəfəsdə.
Kimisi tələshatələsdə.

Ümidlər, arzular,
Diləklər,yarışlar,
Başı qarışlar.
Küsülü, barışlar.
Alqışlar, qarğışlar.
Düşmənlər, dostlar.
Aşağı-yuxarı postlar
Yenidən yaşayırlar
Keçdiyimiz illəri,
Gördüyümüz günləri,
Yaşanmış ömürləri.

Təkrar sevgilər,
Təkrar evlilər.
Təzə əsirlər,
Təzə fəsillər,
Təzə gəlimlər,
Təzə gedimlər
Təzə və təkrar…
Nəsillərdən-nəsillərə
Aparır təkrar,
Təkrar, təkrar…

***2007***

# XARIBÜLBÜL

Bülbül sarı,
Məxmər Xarı,
Gülün üstə! – üçü bir gül-
- «Xarıbülbül».
Sirli bir gül.
Hansı nakam məhəbbətdən
Sən yarandın?
Gülün üstə Xar və Bülbül – üçü bir gül.
Bülbülün gözü kordur
Məhəbbətin gözü kimi
Xar isə al-əlvandı
Qələbənin özü kimi
Əfsanəsən, yoxsa ki gül?
Xarıbülbül, Xarıbülbül…
Niyə korsan axı bülbül?
Niyə Xarın başın üstün
Kəsdiribsən, Sarı büdbül?
- Bəlkə səni xar eyləyib
Bəlkə pünhan olan eşqi,
Aləmə zinhar eyləyib?
Qanadların niyə sərib oturmusan.
Sevdiyin gülün içində
Mənzil qurub xar oturub.
Bəlkə sənin sevgilinə ləkə vurub…
Əfsanəsən, yoxsa ki gül?
Xarıbülbül, Xarıbülbül.

***2004***

# SÖZ

Söz var göyə qaldırar,
Söz var göydən endirər.
Söz də var ki, güldürər,
Söz də var ki, öldürər.

Söz dili də yandırar,
Nadanı da qandırar.
Söz ürək də sındırar,
Söz hər işi andırar.

Söz var ki, ara vurar,
Söz də var yara vurar.
Sözün meydanı geniş,
Həm uçurar, həm qurar.

Sözün közü qaralmaz,
Söz yarası sağalmaz.
Söz var ki, yadda qalmaz,
Açıq sözə söz olmaz.

Söz hər şeydən güclüdür,
Sözün özü, sözlüdür.
Həm şirindir, həm acı,
Söz də var, söz möhtacı…

***2002***

# DƏRD

Dərd var «ayağı yalın»,
Dərd var «ayaqqablıdır»,
Dərd var ürəkdə gəzər,
Dərd var sifəti bəzər.

Dərd var fərəh gətirər,
Şəhidli, şərəflidir!
Dərd var adam öldürər
Əbədi bir itgidir!

Dərdlər insan üçündür,
Çəkən var, çəkməyən var.
Dərd qəflətən gələndə
Ölən var, ölməyən var.

Dərd böyüklü-kiçikli,
Dərd sifariş olunmur.
Kiçik dərdi fərd çəkir,
Böyük dərdi mərd çəkir.

Elnən gələn dərd deyil,
«Toy-bayramdı» deyirlər.
Bu dərd bir xalqın dərdi,
Vətən dərdi deyirlər.

## DÜNYA

Gah şirindir, gah da acı,
İnsanlar sirlərin tacı.
Gözəlliklə, sevgi ilə
Cəzb endibən atan dünya.

Gah ucaldan, gah alçaldan,
Həyat verən, ömür yeyən.
Gah güldürən, gah da gülən,
Məcrasınca axan dünya.

Gah dirildən, gah öldürən,
Gah ağladan, gah güldürən.
Gah yandıran, gah söndürən,
Sevincə kədər qatan dünya.

Həyat çaydır, qəm axır, axır,
Gözüm görür, qəlbim yaxır.
Heç bir şeyə yoxdur axır,
Aman dünya, aman dünya.

# BAXA BİLMİRƏM

Yıxılan ağaca, solan çiçəyə
Soyuqqanlıqla baxa bilmirəm.
Coşan dalğalara, axan çaylara
Seyrçi nəzərlə baxa bilmirəm.

Yarpağın torpağa tökülməsinə,
Dan yerinin sübhdən sökülməsinə,
İncə bir çiçəyin bükülməsinə
Qayğısız, yanğısız baxa bilmirəm.

Namərdin qılıncı sivirməsinə,
Mərd olan insanın əyilməsinə,
Yalanın ustalıqla deyilməsinə
Təəssüfsüz, nifrətsiz baxa bilmirəm.

Kövrək bir ürəyin qırılmasına.
Qurulu bir evin yıxılmasına,
Gözəl bir insanın yox olmasına,
Kədərsiz, ağrısız baxa bilmirəm.

Sönmüş bir ocağın közərtisinə,
Yanmış bir torpağın dirçəlməsinə,
Ayrı düşənlərin birləşməsinə
Sevincsiz, sevgisiz baxa bilmirəm.

***İstanbul 1994***

# OLMAZ

Dəlidən dəliyə,
Əyridən əyriyə,
Sünidən süniyə
Şikayət olmaz.

Dilənçidən dilənçiyə,
Sülənçidən sülənçiyə,
Girənçidən girənçiyə
Şikayət olmaz.

Arsızdan arsıza,
Karsızdan karsıza,
Abırsızdan abırsıza
Şikayət olmaz.

Pozğundan pozğuna,
Azğından azğına,
Satqından satqına
Şikayət olmaz.

Fərsizdən fərsizə,
Mənsizdən mənsizə,
Vecsizdən vecsizə
Şikayət olmaz.

Yalançıdan yalançıya,
Talançıdan talançıya,
Palançıdan palançıya
Şikayət olmaz.

Coşqundan coşquna,
Çaşqından çaşqına,
Qaçqından qaçqına
Şikayət olmaz, olmaz, olmaz!

# DÜNYA GÖZƏL DÜNYADI

Dünya gözəl dünyadı,
Yalanları olmasa.
Bizi əvvəl səsləyib,
Sonra yola salmasa,
Dünya gözəl dünyadı.

Bəxtin dönük olmasa,
Vaxtsız insan solmasa,
Pislərə yer olmasa.
Dünya gözəl dünyadı.

Yalan ayaq tutmasa,
Övlad səni atmasa,
Xəbis-xəbis insanlar
Pusqularda durmasa,
Sənə tələ qurmasa,
Dünya gözəl dünyadı.

Ürəyinə dağ çəkib,
Səni küsdürməsələr,
Bu gözəl dünyamızdan
Səni bezdirmeseler,
Dünya gözəl dünyadı.

Bu dünyanın dərdini,
Yaxşılar daşısa da,
Mərdləri çox olsa da,
Namərdlər yaşamasa,
Dünya gözəl dünyadı.

# BURA QƏBRİSTANLIQDIR

Bura qəbristanlıqdır,
əbədiyyət yeridir,
Burda da həyat
öz qanunun yeridir.
Bura yoxdan var olub,
vardan yox olanların,
Yaşanmış ömürlərin
son məzili, evidir.

Burda həsrət olan var,
bura həsrət qalan var,
Burda vaxtsız gedənlər,
bura qibtə edənlər,
Dünyaya gələnlərin
bura son mənzilidir,
Bura bəhanələrlə
gələnlərin yeridir.

***Avqust 2010***

# BU DÜNYA

Ömürlərin yaşıdı,
Gedənlərin göz yaşıdı.
Köçənlərin yaşıdı,
Sevgilər dünyasıdı,
Sevənlər dünyasıdı, bu dünya.

Sevinc və qəm satandı,
Kədər üçün məkandı.
Yaradandı, atandı,
Sayğılar dünyasıdı,
Sayıqlar dünyasıdı.

Başdan-ayağa sirdir,
Biz çoxuq, dünya birdir.
Qədrin bilənə cənnət,
Bilməyənə cəhənnəm.
Cəsurlar  dünyasıdır,
Məşhurlar dünyasıdır.

Hər dərdin davası var,
Bəd işin xatası var.
Hər kəsin cəzası var,
Səfalar dünyasıdır,
Cəfalar dünyasıdır.

Əvvəli, axırı var,
Hiyləgər, paxılı var.
Açılan paxırı var,
Qayğılar dünyasıdır,
Arzular dünyasıdır.

# Ayrılıq,
# həsrət nəğməsi

*Mənsur şeir*

# BABAMIN AYRILIQ MAHNISI

*Atamıza baba deyərdik*

*Qulağımdan getməyir səsin, sözün, ay baba, əbədi bir mahnısan, həm kədərli, həm sevincli, həm də nisgilli, həzin. Bu mahnının musiqisi də, sözləri də sənindir. Bu mahnıya qulaq asmağı çox sevirəm. Bu kövrək mahnıda sənin həyatın, bizim yolumuzda çəkdiyin əzab-əziyyət, sinə gərdiyin çətinliklər, müharibədən sonrakı ağır illər, məhdudiyyətlər və on iki nəfərlik ailə və s. və s...*

*Sənin yaratdığın bu ayrılıq nəğməsini sən bu dünyadan gedəndən sonra duydum. Sağlığında duymadığım hissləri indi, sən yox ikən duyuram. Sənin bu mahnını əbədi ayrılığın mənə oxutdu. Bu mahnı ürəyimin ilk yarasından axıb gələn nisgilli bir ayrılıq sədasıdır.*

*Allah sənə rəhmət eləsin.*

## ANAMI İSTƏYİRƏM

***Allah sənə rəhmət eləsin, ana!***

Dərd başımdan aşanda,
Fikir-xəyal çaşanda,
Ayrılıq danışanda,
Anamı istəyirəm.

Sevinc, fərəh gələndə,
Ölkələri gəzəndə,
Çəməndən gül üzəndə,
Anamı istəyirəm.

Bir bəstəboy görəndə,
Saçlarımı hörəndə,
Sevinəndə, güləndə
Anamı istəyirəm.

Məclislərdə olanda,
Otaqda tək qalanda,
İçim sözlə dolanda
Anamı istəyirəm.

Həsrət boynum əyəndə,
Təzə paltar geyəndə,
Analardan deyəndə,
Anamı istəyirəm.

Qocalıq yol yoldaşım,
Artıq ağarmış başım.
60-ı keçib yaşım,
Anamı istəyirəm,
Anamı istəyirəm.

# ANAM

Anam – sızıldayan ney səsi,
Anam təbiətin isti nəfəsi,
Ömrümün qəmli xatirəsi -
İpək anam.

Uşaqlığımın, gəncliyimin sədası,
Şirin nəğmə – anam!
Sevincimə şərik, dərdimə şərik,
Ən ülvi məhəbbət – anam!
Sənsiz həyatımın azalıb mənası.

Fəxr edərdin, böyüdərdin…
Hərəmizdən bir cür çəkərdin
On uşaqlı, nəvəli, nəticəli, kötükcəli,
Xoşbəxt anam, zəhmətkeş annam,
Səbrli, dözümlü, müdrik anam.

Müqəddəs anam,
İncə qəlbli, kövrək,
Qaçqınlığını özünə dərd edən
İncik anam.

Məzarı Bakıda,
Ruhu Şuşada.
Atamı ziyarət edən,
O dünyaya, oğlunun dalınca gedən
Vəfalı anam.

# BABAMA

Özün yoxsan, sözün qalıb,
Ürəyimdə közün qalıb,
Gözlərimdə gözün qalıb,
Can, ay Baba, can, ay Baba.

Ayrılığın yaman oldu,
Gözlərim boşaldı, doldu.
Könlüm evi viran oldu,
Kaş bileydin sən, ay Baba.

Həkk olmusan yaddaşıma,
Adın yazılıb adıma.
Yaman çatardın dadıma,
Hər bir işdə sən, ay Baba.

Həm dost idin, həm də yoldaş,
Həm ataydın, həm də sirdaş.
Bir də səni görəydim kaş,
Uy, ay Baba, uy, ay Baba!

***1988***

# BABAM OY!

Sözün qalıb sözümdə,
Nəmli gözün gözümdə,
Odun, közün özümdə,
Babam oy! Babam oy!

Ayrılığın sinə dağlar,
Qızın səni deyib ağlar,
Yasını ölüncə saxlar,
Babam oy! Babam oy!

Bu gedişin yaman oldu,
Ümid çiçəklərin soldu.
«Güllü bağçan» viran oldu,
Babam oy! Babam oy!

Həkk olmusan yaddaşıma,
Çox işlər gəldi başıma.
Yaman çatardın dadıma,
Babam oy! Babam oy!

***7 yanvar 1988***

# ATAM ŞAMİL MÜƏLLİMƏ

Həyat sevgisiylə ürəyi dolu,
Dörd tərəfi övlad-uşaqla dolu,
Əyilməyən dizi, yorulmaz qolu,-
Bax, beləydi Şamil müəllim.

Zarafatcıl, gülən idi,
Dost qədrini bilən idi,
Qonaq üçün ölən idi,-
Bax, beləydi Şamil müəllim.

On uşaq atası, çoxlu nəvəsi,
Tükənməz idi onun həvəsi,
Bağ-bostandan gələrdi səsi,-
Bax, beləydi Şamil müəllim.

Həyat eşqi sözü idi,
Övlad eşqi gözü idi.
Məhəbbətin özü idi,
Bax, beləydi Şamil müəllim.

Sevinci başdan aşardı,
Şirin-şirin danışardı,
Qığılcımdan alışardı,-
Bax, beləydi Şamil müəllim.

## ANA!

Ağzımın şirin sözüsən,
Gözümün odu,
        könlümün istəyi,
Ürəyimin ağrısı,
                müəllim anam.
Qaçqınlıq adını
        qəbul edə bilməyən…
Anam!
Bir nisgilimsən,
        didərgin anam.
Ana, şirin dilimsən,
Üzün üzümdür, qalıb.
Sənsən, özümsən.
Davamıdır ömrüm ömrünün.
Həvəsim, həvəsindir,
Səbrim səbrin,
Təbim təbindir.
Yaşayırsan xatirəmdə,
                özümdə.

## HARDASAN, ANA?!

Qəmli xatirəyə dönmüsən,
Getdin birdəfəlik, dönmürsən,
İşıqsan qəlbimdə, sönmürsən,
Mənim ilk sevənim, hardasan, harda?!

Odlara yanıram, görmürsən,
Min dərdə düşürəm, bilmirsən,
Axan göz yaşımı silmirsən,
Qeydimə qalmırsan, hardasan, harda?!

Ömrümün yazı sən idin,
Könlümün sazı sən idin,
Dilimin ilk sözü sən idin,
Ayrılıq salanım, hardasan, harda?!

Uşaqlıq illərim düşür yadıma,
Şuşalı anlarım, sənli anlarım.
Mehriban əllərin düşür yadıma,
Nağıla dönənim, hardasan, harda?!

Mənə elə gəlir Şuşaya getsəm,
Səni evimizdə mən tapacağam.
Şuşaya yol açıb qovuşduğum gün
Sanki mən sənə qovuşacağam!
Sənin həsrətindən qurtaracağam!
Əbədi gedənim, hardasan, harda?!

***2005***

# QAYIT, ANA!

Ana, ömrümə bir də qayıt,
Analı olum, balan olum.
Ömrümə bir də qayıt,
Bala olum,
Dərdim azalsın,
Şuşada olum.

Qayıt, bir də uşaq olum,
Qayıt, ürəkli olum.
Qayğısız günlərimi qaytar,
Atalı-analı, nənəli-babalı
İllərimi qaytar.

Mən ki səndən doymamışam,
Heç də səndən soymamışam.
Bəlkə də qədrini az bilmişəm,
Bəlkə də səni incitmişəm.
Qayıt, əllərindən öpməmişəm.

Qayıt, ömrümə bir də qayıt.
Ana, ehtiyacım var sənə.
Bir də qayıt ömrümə,
Qayıt, ehtiyacın olum.
Qayıt, qulluğunda durum…
Balan olum.

*1999*

# QOCA, QARI DEDİLƏR...

Qoca qarı dedilər…
Anam yadıma düşdü.
İçimi dərd üşütdü.
Yazıq yaman qocalmış,
Yamanca büzüşmüşdü,
Saçları ağarmışdı,
Üzündə zamanın
izi qalmışdı,
Təbiət verdiyin
ondan almışdı.
Gözləri keçən əsrin
əvvəlindən baxardı,
Hərdən bir ah çəkərdi,
Yandırardı-yaxardı…
Kimdən narazı,
kimdənsə incik idi…

Həyatımın dərd-səri
Bərk qatmışdı başımı,
O qədər də duymazdım
Onun o göz yaşını.

İndi yaşa dolmuşam,
Qoca-qarı olmuşam,
Anamın çəkdiklərin,
Ancaq onun yaşına
Çatdığımçün duymuşam.

Qoca-qarı dedilər,
Anam yadıma düşdü,
İki qarı xəyalən,
Bir-birilə görüşdü.

***2005***

# YAZILMIŞ KİTAB

Yazılmamış kitab idim,
Dərd-kədərdən uzaq idim.
Yazılıb dolmuşam,
Artıq əsər olmuşam.

Bir sətrim də ağ qalmayıb,
Arzularsa azalmayıb.
Heç qayğılar qurtarmayıb,
Ümidlərim qırılmayıb,
Yazılıb dolmuşam,
Artıq əsər olmuşam.

Ətrafım seyrəlibdi,
Yaşıdlarım yerini
Cavanlara veribdi,
Yeni nəsil gəlibdi,
Yazılıb dolmuşam,
Keçmiş zaman olmuşam.

***2010***

# Qəlb ağrıları

# MƏHƏBBƏT ÖLƏNDƏ

Hər şey adi görünər,
Göylər qara geyinər,
Həyat dadın itirər,
Məhəbbət öləndə.

Ürək yanar, kül olar,
Sevinc, arzu gül tək solar,
Xatirələr qənim olar,
Məhəbbət öləndə.

Keçmiş günlər haray salar,
Fikir-kədər səni yorar,
İçin əfsuslarla dollar,-
Məhəbbət öləndə.

Üzüdönük düşmən kəsilər,
Yollarında tikan bitirər,
Səs-sədası kədər gətirər,
Xəncər çəkib xətər yetirər,-
Məhəbbət öləndə.

***2005***

## MARALIM

Səni əziz saxladım,
Sənə ümid bağladım,
Həsrət qoydun, ağladım,
Üzüdönük maralım.

Arzum içimdə qaldı,
Güllü bağçam saraldı,
Ağ günlərim qaraldı,
Üzüdönük maralım.

Ətirli bir gül idin,
Şirin-şəkər dil idin,
Bağçamda bülbül idin,
Üzüdönük maralım.

Mənə zülüm eylədin,
Heç bilmədim neylədin.
«Özgəninəm», - söylədin,
Niyə susdun, maralım?!

Səndən özgə gülüm yox,
Sənsiz mənim günüm yox.
Ayrılığa dözüm yox,
Üzündönük maralım.

Küsdürüb yola saldın,
Yandırıb oda saldın.
Səbrimi əldən aldın,
Üzündönük maralım.

***2003***

# SINDI, SOLDU, SÖNDÜ

Bir sədəfli saz idi,
İncə, büllur vaz idi,
Şüşə demək az idi,
Sındı…

Məclisləri bəzərdi,
Ürəklərdə gəzərdi,
Kövrək gülə bənzərdi,
Soldu…

Bulaq tək duru idi,
Elin qüruru idi,
Səhərin nuru idi,
Söndü…



## GECƏLƏR

Sənə həsr etdiyim ömrümü,
Sevincli, kədərli günümü,
Mənə etdiyin zülümü
Yadıma salıram gecələr,
Od tutub yanıram gecələr.

Ağladıb yola salmağını,
Sərgərdan qalmağımı,
Ürəyimi  qırmağını,
Yadıma salıram gecələr,
Od tutub yanıram gecələr.

Arxanca süründüyüm günləri,
Hər dərdinə dözdüyüm illəri,
Nigaran qoyduğun elləri,
Yadıma salıram gecələr
Od tutub yanıram gecələr.

***2003***

# MƏNSUR ŞER

Cavanlıq özü gəlmişdi,
Aldatdı getdi: atdı getdi.
Mən axtaranda gəlmədi,
Mən istəyəndə yox oldu,
Ürəyimdə ox oldu.

Gözəllik özü gəlmişdi,
Xəbərsiz getdi.
Mən istəyəndə gəlmədi,
Həsrətin çəkəndə gəlmədi.

Sevgi də, eşq-məhəbbət də,
Sevilib-sevilmək də,
Od-alov da, hərarət də,
Hamısı özü gəlmişdi,
Qəmli bir iz qoyub getdi,

Mən axtaranda gəlmədi.
Yanıb-yaxılanda gəlmədi.
Həyatın qədrini biləndə gəlmədi,
Mən istəyəndə gəlmədi, gəlmədi.

# DİL LAL OLUR

Sevinc məxfi qalanda,
Ürək dolu olanda,
Gözlər yaşla dolanda,
Dil lal olur, mən də lalam.

Qulaq səsdə olanda,
İçinə «qor» dolanda,
Gülə həsrət qalanda,
Dil lal olur, mən də lalam.

Namərd üzə duranda,
Şər-xata quduranda,
Fələk məni yoranda,
Dil lal olur, mən də lalam.

Arzu səni didəndə,
Ümidi itirəndə,
Dərd, dərd üstə gələndə,
Dil lal olur, mən də lalam.

Tüstüm ərşə çıxanda,
Yadlar tənə yaxanda,
Dözüm məni yıxanda,
Dil lal olur, mən də lalam.

***2003***

## BULUD

Bulud dolar boşalar,
Bəzən həzin-həzin
Yağış yağar,
Bəzən tufan qoparar,
Şimşək çaxar,
Sellər axar,
Buluda nə var ki,
Doldu, boşalar.

İnsan da bulud kimi,
Dolar, amma boşalmaz.
Həzin-həzin ağlasa da,
Tufan qoparsa da,
Göz yaşları sellər kimi
Axsa da, boşalmaz.
Buluda nə var ki,
Doldu, boşalar…
İnsan boşalmaz.

***2002***

# SƏNSƏN

Gözümün ağı-qarası,
Həyatımın mənası,
İstəyi, təmənnası,
Ciyərimin parası
Sənsən.

Tükənməz arzularım,
Gündəlik qayğılarım,
Yuxuda sayqılarım
Sənsən.

Həyatımın baharı,
Ömrümün ilk nübarı,
Yaşamımın vüqarı
Sənsən.

***2000***



# HƏSRƏT QALARSAN, YADA SALARSAN...

Fələk saçlarımı yoldu,
Ümid çiçəklərim soldu,
Tale mənə düşmən oldu,
Əzabların məni yordu,
Həsrət qalarsan,
yada salarsan.

Əvvəl könlümü aldın,
Sonra çöllərə saldın,
Ayrılığı yaratdın,
Ağ günümü qaraltdın,
Həsrət qalarsan,
yada salarsan.

Sən məni də dandın,
Özünə düşmən sandın,
Nə dedilər, inandın,
Məni odlara saldın,
Həsrət qalarsan,
yada salarsan.

El içində xar eylədin,
Gen dünyamı dar eylədin,
Əğyara qurban eylədin,
Dillərə dastan eylədin,
Həsrət qalarsan,
yada salarsan.

***2003***

# GƏNCLİYİM

Dağa-daşa yolu düşdü,
Düyün düşdü, ilişdi.
Ehtiyac içində keçdi,
Cavanlığım, gəncliyim.

Ayaqlarda sürünmədi,
Dumanlara bürünmədi.
Görünmədi, bilinmədi,
Cavanlığım, gəncliyim.

Gözəl idi - nur, işıqlı,
Qeyri-adi, yaraşıqlı.
Əyinsiz-başsız idi
Cavanlığım, gəncliyim.

Hərə bir tor atırdı,
Hamı tamah salırdı.
Pislər qara yaxırdı,
Cavanlığım, gəncliyim.

Rəqiblərə yağı idi,
Gənclərə göz dağı idi,
Ömrümün yaz çağı idi,
Cavanlığım, gəncliyim.

Yağışı, çiskini çox,
Arzusuna gümanı yox.
Taleyimə atılan ox,
Cavanlığım, gəncliyim.

# ÖLÜM

Ölüm qorxuludur, yoxsa ki, həyat?
Ölüm şirindir, yoxsa ki, həyat?
Bəlkə ölümün qorxusundan
şirindir həyat,
Yoxsa çıxışsızlıqdan?!
Ölümün hökmündən, nəhayətdən,
qeyri-müəyyənlikdən
nədən axı, nədən şirindir yaşamaq,
şirindir həyat?
Bəlkə qeyb olmaqdan,
əbədiyyətə qovuşmaqdan,
Bəlkə ölüm həyatdan şirindir!?
Axı, ölüm də
həyatın nemətlərindən biridir,
Axı elə ölüm var ki,
diridən də diridir.
Axı elə diri var ki,
ölüdən də ölüdü.

# DURNA OLUB UÇACAĞAM

*Rəvayətə görə, «durnalar müqəddəsdir- ruhlardır»*

İçimdəki qışqırıqdan,
Səssiz-küysüz hıçqırıqdan,
Həsrətdən,intizardan,
Xəzan olan gülüzardan,
Həqarətdən,
Bu dünyanın qayğısından,
Ürəyimin ağrısından,
İstəklimin yanğısından,
Yaşamaqdan təngə gəlib,
Bu dünyadan qaçacağam.
Durna olub uçacağam,
Ruhlara qarışacağam.

***2004***



# KİM APARACAQ?

Anam gətirdi məni dünyaya,
Necə gedəcəyəm, onu bilmirəm.
Küləyin rəqsinə bənzəyir insan,
Dünyaya lüt gəlir, lüt gedir insan.
Analar gətirir dünyaya insan.
Harda, necə, nə vaxtsa gedəcək,
Bu fani dünyanı hər gələn,
Əvvəl-axır tərk edəcək,
Gedəndə kim aparacaq?

***2004***



# NEY SƏSİ

Bir yaralı qəlbin göynərtisi,
Bir ömrün acı xatirəsi,
Ney səsi - məhəbbət şikəstəsi,
Ürək yangısı, ruhun ağrısı.
Ayrılğın sərt üzü,
Həsrətinsə özü,
Gəlimli-gedimli dünya,-
Əfsanə səsi - ney səsi.

***2008***



# MƏNİM İLK MƏHƏBBƏTİM

Sevgi dolu ürək idi,
Çiçək kimi kövrək idi,
Maral kimi ürkək idi
Mənim ilk məhəbbətim.

Öz yolunu tez itirdi,
Ömrümə zədə yetirdi,
Düşmənləri sevindirdi,
Mənim ilk məhəbbətim.

Sevdi, qədri bilinmədi,
Daşa dəydi, bölünmədi.
Pünhan qaldı, görünmədi,
Mənim ilk məhəbbətim.

Od oldu, özün yandırdı,
Su oldu, özün söndürdü.
Həyatı mənə qandırdı
Mənim ilk məhəbbətim.

Səni oda salan oldu,
Təmiz qəlbin talan oldu,
Yaraların qalan oldu,
Sağalması yalan oldu,
Mənim ilk məhəbbətim.

# MƏNİM ÖMÜR KİTABIM

Keçdiyim çətin yoldu,
Əziyyətlə doludu.
Nələr, ah, nələr oldu…
İçimdən gələn ahım,-
Mənim ömür kitabım.

Həyat oyun, bir uduş,
Bir qəlbsizə oldu tuş.
İstəklərim oldu puç,
Ömür sanki bir uçuş,
Sınıq qalan rübabım,-
Mənim ömür kitabım.

Təəssüf dolu həyatım,
Çox həzin bir bayatım,
Nadanlarla büsatım,-
Mənim ömür kitabım.

Dəfələrlə pozuldu,
Çətinlərlə yozuldu.
Necə gəldi yazıldı.
Yanlışlarım, günahım,-
Mənim ömür kitabım.

Nələr çəkdi bilinmədi,
Yaraları görünmədi.
Ürəkdən öyünmədi,
Bir nadana xitabım,-
Mənim ömür kitabım.



# NƏDİR?

Dünya, nədir bu ölümlər-itimlər?
Dünya, nədir bu gəlimlər-gedimlər?
Bəzən insan açılmadan məhv olur,
Neyçün açılan da, axırda solur?!

Hardan gəlir, hara gedir bu karvan,
Kimdir axı, kimdir axı bu sarvan?
Kimdir bu dünyada əbədi qalan,
Nə üçün bu dünya fanidir, yalan?

Ölüm bizimlədir hər saat, hər an,
Yaşamaqdan doymur, yaşayır insan.
Nə üçün hökm edir, hər zaman,
Hər şeyi həll edir əlahəzrət-Zaman!

***2005***



# GEDƏ BİLMƏDİM DALINCA

Ayrılığa mən nə edim,
Ürək oldu didim-didim.
Kimə deyim, hara gedim?
Qaldım yollar ayrıcında.
Gedə bilmədim dalınca.

Bir vəfasız oda saldı,
Varlığımı məndən aldı.
Yorulub yollarda qaldı,
Həsrətdən ürəyim yandı,
Gedə bilmədim dalınca.

***2004***



# KÖNÜL VERDİM VƏFASIZA

Könül verdim vəfasıza,
Yaman talan etdi məni.
Qəlb evini soydu getdi,
Boş bir yalan etdi məni.

Bir bülbüləm, gülə həsrət,
Bircə şirin dilə həsrət.
Bir üzüyəm, lələ həsrət,
Yolasalan etdi məni.

Dedim həsrətə dözmərəm,
Səndən əlimi üzmərəm.
Sənin yolunu gözlərəm,
Dərdin alan etdi məni.

***2004***

# PAYIZ ÇİÇƏYİM

Səni gördüm vuruldum,
Bulaq kimi duruldum.
Gözləməkdən yoruldum,
Mənim payız çiçəyim.

Neyçün yada salmadın,
Neyçün qışdan qaçmadın,
Neyçün işıq saçmadın,
Mənim payız çiçəyim?!

Gec açıldın, tez soldun,
Sən mənə bir dərd oldun.
Gözümü yolda qoydun,
Mənim payız çiçəyim.

# YUXUM QAÇDI

Xatirələr dilə gəlib danışdı,
Yata bilmədim, yuxum qaçdı.
Dərələr, dağlar aşdı…
Gah Şuşada, gah Bakıda dolaşdı…
Uşaqlıq illərim, sevənlərim,
Nənəli-babalı, atalı-analı günlərim,
Ən ağır anlarım, atanlarım, satanlarım…
Kino lenti kimi başımda dolaşdı,
Yuxum qaçdı, xatirələr danışdı.
Yorğanla, yastıqla güləşdim,
Etdiyim səhvlərlə hey süpürləşdim,
Keçmə-keşli həyatımla üzləşdim,
İçimdə bitməyən arzular dolaşdı,
Fikrim qarışdı, yuxum qaçdı,
Acılı-şirinli xatirələr danışdı.

***Almaniya,***
***Offenburq 27.09.02***

# GETDİ

Qəlbimə bir qəmli
nəğmə kimi gəlmişdi,
Şirin xatirələrlə
ömrümü bəzəmişdi,
Sevdiyindən, az qala,
özümə bənzəmişdi,
Bu kiçik dünyamızı
sevə-sevə tərk etdi,
Arzular qanadında
gedər-gəlməzə getdi.

Qulağımda səslənən
onun ayaq səsidi,
Onun ılıq nəfəsi
Bulaq zümzüməsiydi.
Acı xatirələrsə,
onun söz gülləsiydi,
Yandırıb-yaxmaq ilə
ürək sındırdı getdi.

*Avqust 2010*

# Ömür yolları

# AY ÖMRÜMÜN SİRDAŞI

Ay ömrümün sirdaşı,
Neyçün oldun başdaşı?
Tökdün gözümün yaşın.
İndi necə yaşayım
Axı bu yetmiş yaşı?

Gündüzüm qaralıbdı,
Qış üstümü alıbdı.
Sənsiz yaşamaq çətin,
Ay ülvi məhəbbətim.

Başımın tacı idin,
Tale yazısı idin.
Ömrümün yazı idin,
Yayı, payızı idin,
Məni tək qoyub getdin.
Qışı tək yaşa dedin.

Qırx dörd il ömür sürdük,
Ömrün çətin illərin,
Xoşbəxt anların gördük.
Bircə övlad böyütdük,
Onun vəfasın gördük,
Necə deyək biz ona,
Sənin bu yoxluğunu,
Atalı balamın
Atasız olduğunu?!.

***2009***

# Ailə albomundan




















Фото




г. Шуша 6/VIII-58 г.






















St. Bartholomä








448-00-88

# ÖMRÜMÜN SÖNDÜ ÇIRAĞI

Səninlə dünyanın biz qonağıydıq,
İndi mən dünyanın sənsiz qonağı.
Çətin və xoş anlar yaşadıq,
Bizsə bu dünyanın bir qonağıydıq.
Sənsiz keçən ömrün söndü çırağı.

Hicranın oduna yanan könlümü,
Kədərli, sevincli keçən ömrümü,
Şirinli, acılı xatirələrlə
İndi yaşayıram dünyada sənsiz,
İndi tək qonağam dünyada sənsiz.
İndi yaşanan illərin sənsiz qonağı,
İndi o illərin sənsiz sorağı…

***2010***

## NƏDƏN?

Solub ürəyimdə tər qönçələrim,
Hələ açılmamış saralır nədən?
Məni dara çəkir düşüncələrim,
Hər şeyə ürəklə yanaşıram mən…
Heç nəyə biganə qalmıram nədən?
Üzdə gülüb, arxadan vuranları,
Girəvə tapıb tələ quranları
Unuduram, onlarla barışıram mən,
Başa düşməyə çalışıram mən,
Hər şeyə ürəklə yanaşıram mən,
İçimdə od tutub yanmıram nədən?

***2003***

# SƏNİNLƏ SƏNSİZ

Sənə könül bağladım,
İçin-için ağladım.
Eşqimə yas saxladım,
Barışa bilmirəm bir daha sənlə,
İndi yaşayıram sənsiz səninlə.

Sən həmdəmim olmadın,
Zülm etməkdən doymadın.
Həyatımla oynadın,
İndi səninləyəm, sənsiz səninlə,
Danışa bilmirəm bir daha sənlə.

Üzüdönük imişsən,
Qəlbi sönük imişsən,
Daşa dönmüş imişsən,
Əbədi küsdürdün, küsdüm səninlə,
Barışmaq mümkünmü bir daha sənlə?

Qara bulud oldun,
Nə boşaldın, nə doldun.
Məni sərgərdan qoydun,
Barışmaq mümkünmü
bir daha sənlə?!
Sənsiz yaşayıram, mən indi sənlə.

Artıq ürəyimdən köç eyləmisən,
Çəkdiyim zəhməti heç eyləmisən.
Bütün həyatımı puç eyləmisən,
Barışa bilmərəm bir daha sənlə,
Naçar yaşayıram sənsiz səninlə.

***2007***

# MƏNİM BİR EŞQİM VAR

Mənim bir eşqim var, dağ zirvəsidir,
Başında qapqara bir bulud ağlar.
Mənim bir eşqim var, kaman səsidi,
Gah bəmdə, gah zildə sızıldar, ağlar.

Mənim bir eşqim var, qoy bilsin dağlar,
Yasını dumanı-çiskini saxlar.
Mənim bir eşqim var, o, ney səsidi,-
Gedib Qarabağa, Şuşada ağlar.

Mənim bir eşqim var, o dilim-dilim,
Düşüb yanar oda, talanıb naçar.
Mənim bir eşqim var, xərabəliyim,
Ümidin itirib olubdu lal-kar,
Xərabə Şuşada yurd salıb ağlar.

# GEC OLACAQ

Məni həsrət qoyacaqsan,
Mənə həsrət qalacaqsan,
Mənə tənə vuracaqsan,
Axır peşman olacaqsan,
Gec olacaq, gec olacaq.

Hərdən xəyala gedəndə,
Həsrət qalıb yad edəndə,
Ruhuna dinclik gəzəndə
Etdiyini dərk edərsən,
Gec olacaq, gec olacaq.

Qəmli nəğmə olacağam,
Xatirəndə qalacağam,
Ehtiyacın olacağam,
Gec olacaq, gec olacaq.

## ALLAH BALEYİ SAXLASIN!

İstərəm şahlıq quşu qoy səni seçsin,
Hər nə istəyin var həyata keçsin.
Arzunla imkanın üst-üstə düşsün,
Xoşbəxtlik, səadət səni bürüsün,
Qoy allah başına hey ruzu töksün
Qazandığın paralar nə tükənsin, nə bitsin.
Şaxlı-budaqlı ağac olasan,
Hər tərəfə kölgə salasan.
Yarıyasan…
Dünyadan kam alasan,
Şirin balam olasan!
Nələrə dözdüyümü
Hərdən yada salasan…

***2004***

## ALLAH BAĞIŞLASIN

İçimdə iki hiss güləşir,
Həm ayrılır, həm birləşir.
Gecə-gündüz bir-birilə əlləşir,
Sən üzümə ağ olandan…

Ayıra bilmirəm bu iki hissi,
Biri unut deyir, biri tut deyir.
Əl çəkmir, bu hisslər içimi yeyir,
Bu bir taledir, artıq, döz, deyir,
Sən üzümə ağ olandan…

***2003***



## UMUD

***Elə gələn var ki, getməsi məsləhətdir,***
***Elə gedən var ki, getməsi əbədi dərddir.***

Qohum-qardaş sənə ümid bağladı,
Bənövşə baxışın sinə dağladı.
Balaların Umud deyib ağladı,
Yaman yerdə qoyub getdin, ay Umud!

Mehribandın, qayğıkeşdin, mülayim,
Səni hərdən yaman istər ürəyim.
Üzüdönük imiş çərxi-fələyin,
Yaman yerdə sənə qıyıb, ay Umud!

Umud! Sevil dil açıbdı ağlayır,
Ağıları, sinəmizi dağlayır.
Umud deyib, səni hey haraylayır,
Umudsuzluq yaman imiş, ay Umud!

# UMUD MÜƏLLİM

Nə qədər ki abırlıydı, həyalıydı,
O qədər də bilikliydi, savadlıydı.
İnsanlarla səmimiydi, vəfalıydı,
Həyat eşqi yazılmışdı gözlərində.

Saf arzular yaşadırdı diləyində,
Sevgi-sevinc gəzdirirdi ürəyində.
Xatir-hörmət sahibiydi,
Umud müəllim!
Bir bölgənin icra başçısıydı
Umud müəllim.
Üz-gözündən nur yağardı,
Ürəyində hərənin öz yeri vardı.
Kövrək gülə bənzəyərdi,
Məclisləri bəzəyərdi
Umud müəllim.

«Şəkər» onun ürəyini zədələdi,
İş başında bu dünyanı tərk elədi.
Altı uşaq, bir ananı göz yaşına qərq elədi.
Cavan qaldı yaddaşlarda,
Cavan getdi Umud müəllim.

# SOYUQ BAXIŞ

Mənə soyuq baxışla baxma,
Ürəyimi yandırıb-yaxma.
Yanıb-yaxılaram,
Bir gün yıxılaram,

Buz olub dondurma,
                donaram!
Daş olub sındırma,
                sınaram,
Od olub yandırma,
                yanaram!
Su töküb söndürmə,
                sönərəm!

Elləri üstümə güldürmə,
                gülünc olaram.
Öldürsən, ölərəm,
Güldürsən, gülərəm.
Ölsəm də, qalsam da,
Sənə yalnız səadət dilərəm.

***2004***

## PEŞMAN GƏZDİM

Sevdim səni, özüm çıxdım yadımdan,
Dönük çıxdın, ləkə gördüm adımda.
Sevgi nədir, dadı qaldı yadımda,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

Anlamadın bircə kərə sən məni,
Heç duymadın ürəyimdən keçəni.
Sən sevə bilmədim səni sevəni,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

Nə atdın, nə tutdun, nə də unutdun,
Eşqin bulağını özün qurutdun.
Əzab vermək yolunu tutdun,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

Sevgi – erkəklikdir, elə bildin sən,
Qadını qul kimi qəbul etdin sən,
Acı sözlərinlə qəlb incitdin sən,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

O qədər incitdin, itmək istədim,
Ölüb bu dünyadan getmək istədim.
Ölüb gedənlərə qibtə bəslədim,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

Mən «yetər» deyəndə sən «betər» dedin,
Mən sevinc deyəndə sən kədər dedin.
Gülüşü də sən mənə əsirgədin,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.

Düşgün xasiyyətin qəlbimi sıxdı,
Yersiz tənələrin evimi yıxdı.
Ömrümün günəşi tərsinə çıxdı,
Peşman gəzdim, peşman gəzdim, nə gəzdim.



## YARIM DEMƏ

Ürəyimi yaraladın,
Arzularım qaraladın,
Məni, məndən araladın,
Daha mənə yarım demə.

İstəyimə zor eylədin,
Gözlərimi kor eylədin,
Qulağımı kar eylədin,
Daha mənə yarım demə.

Elə bir tufan eylədin,
Çətin imtahan eylədin.
Qan-qan deyib qan eylədin,
Daha mənə yarım demə.

Artıq nəfəsimi kəsdin,
Qış küləyi tək sərt əsdin.
Bilmədim nə idi qəsdin,
Daha mənə yarım demə.

Məni məndən özün aldın,
Ayrılığı özün saldın.
Nəhayətdə mənsiz qaldın,
Daha mənə yarım demə.

Tənələrə məni saldın,
Sevincimi əldən aldın.
Zülmün ilə məni yordun,
Daha mənə yarım demə.

Bir od oldun, oda saldın,
Yandırdın, közüm qaraltdın.
Tüstüsüz tonqal qaladın,
Daha mənə yarım demə.

Boğazımda daşa döndün,
Gözlərimdə yaşa döndün.
Çıraq idin, özün söndün,
Daha mənə yarım demə.
Daha mənə yarım demə.

***2003***



# OLSUN

Xoşbəxtlik dilərəm daima sənə,
Sinəndə susmayan bir sazın olsun.
Səadət tapasan, ailə qurasan,
Özün kimi, bir qız övladın olsun.

Sən ana olasan, bir xoşbəxt ana,
Can qurban edəsən sən də balana.
Bir gün «düşmən» deyib o səni dana,
Mənim çəkdiklərim qismətin olsun.

Başına ip salıb sürüsə hara,
Dalınca qaçasan haradan-hara.
Qürbət ölkələrə səni apara,
Xəsarət, xəcalət qismətin olsun.

Eşqi, məhəbbəti didsin içini,
Bilməsin qədrini, duymasın səni.
Od tutub yansan da sənin səsini
Pərişan, pəjmürdə ovqatın olsun.

Hər an düşmən deyib, səni suçlasın,
Gah tutsun o səni, gah da tullasın.
Atgetməz yollara səni yollasın,
Verdiyi əzablar sovqatın olsun,
Özün kimi, bir qız övladın olsun.

***2001***

# NƏ DEYİM

Məsləhətsiz, soruşmadan gedirsən,
Xeyir-dualara sən lağ edirsən.
El içində bizi rüsvay edirsən,
Təhqirlə, minnətlə atıb gedirsən,
Heç bilmirəm bu gedişə nə deyim.

Öyüd-nəsihətə gələ bilmədin,
Ürəkdən bizi sən heç güldürmədin.
Ənənə bilmədin, adət bilmədin,
- Yormusuz siz məni!-Deyib gedirsən,
Bəlkə sən deyəsən, ay üzüdönük,
Bu naxələfliyə axı nə deyim?

Qəlbimi incidib, sevgimi atıb,
Başıma olmazın müsibət açıb,
Sinəmə sağalmaz yaralar yaxıb,
Tənəylə, «dincəlin!» – Deyib gedirsən,
Özüm də bilmirəm sənə nə deyim.

Düzənli yolumu sən dağ eylədin,
Arzu-istəyimə sən lağ eylədin,
Yalan söyləməkdə lap ağ eylidən,
- Siz mənə düşmənsiz! – Deyib gedirsən,
Belə bir gedişə axı nə deyim.

Atadan, anadan yaxın kəs olmaz,
Vurduğun yaranın yeri sağalmaz,
Bu dünya fanidir, sənə də qalmaz,
Vətəni, milləti atıb gedirsən,
Vallah, bu gedişə bilməm nə deyim.

Sənə həsr etdiyim illər, fəsillər,
Bizi tanıyanlar, bizim nəsillər,
Adət-ənənəni bilən əsillər,
Soruşacaq, öyrənəcək, biləcək,
Heç bilmirəm soruşsalar nə deyim.

Bu evdə sən boya-başa çatmısan,
Bu evdə ana deyib, sən dil açmısan,
Bu evə gəlişinlə işıq saçmısan,
Ayağın yer tutandan bizdən qaçmısan,
Gedəndə də, barı bir hörmətlə get,
Belə gedişinə, söylə, nə deyim?!

***2000***



# ÜRƏYİNDƏ YOLLAR AÇDIN ŞEYTANA

Ürəyində yollar açdı şeytana,
İttiham etməyə ona haqq verdi.
İçində nifrətlər gəldi meydana,
Etdiyi qəstlərə qol-qanad verdi.

Haqqını unutdu, hamını dandı,
Saldığı nifaqda özü də yandı.
Düzü əyri gördün, əyrinisə düz,
Nələri itirdi, nəyi qazandı?

Bilmədi qədrini onu sevənin,
Gəlmədi dalınca küsüb gedənin,
Peşiman eylədi, qəlbini qırdı,
Onun yolunda canından keçənin.

***2003***

# ARZUM

Arzumun dalınca qaçdım,
Yoluna işıq saçdım.
Arzum daşa dirəndi,
Orda-burda diləndi.
Arzum xaricə qaçdı,
Özünə yollar açdı.
Nə qədər çalışdımsa,
Arzum arzudan qaçdı.
Əlimdə olan zaman
Çox çalışdım, vuruşdum,
Arzuma çatmaq üçün
Fırtınayla, tufanla,
Qarla, qışla yarışdım.
Arzusunun dalınca
gedənlərə qarışdım.

Arzum «arzumun» əlində indi.
Ondan soraq gözləmək,
onu görmək çətindi
Gözüm yolda,
qulağım səsdə, özüm xəstə
Arzum, arzum olan kəsdə.

***2001***

# OLMUŞAM

Dərdimi heç kəsə deyə bilmirəm,
Pünhan ağlayıram, gülə bilmirəm.
Çölümü görənlər bəxtəvər deyir,
Nələr çəkdiyimi danar olmuşam.

Saldı ayaqlara eşqin haqqını,
Bilmədi qədrimi vicdan satqını,
Qırıq-qırıq etdi qol-qanadımı,
Aldığım yaranı qanar olmuşam.

Yolum qışa düşdü, yay axtarıram,
Qaranlıq gecədə ay axtarıram,
Bu qoca dünyada «pay» axtarıram…
Vəfasız əlindən donar olmuşam.

***2004***

# MÜKAFATIM

Səni sevdim, dərdə saldım canımı,
İtirdim rahatlığımı, dəyişdirdin halımı,
Rəhm etmədin, neyçün tökdün qanımı?
Get yadı tut, yadlara məni sat!
Mükafatım, mükafatım, mükafat.

Sən bir ulduz idin ömür səmamda,
Sən bir arzu idin kiçik dünyamda.
Sən bir işıq idin qaranlıqlarda,
Get dəxi könlümü özgələrə sat,
Mükafatım, mükafatım, mükafat.

Mən səni ömrümün mənası sandım,
Gecə də, gündüz də, oduna yandım,
Sən isə sevgimi üzümə dandın,
Get, uğurlar olsun, get, arzuna çat!
Mükafatım, mükafatım, mükafat.

Vurduğun yaralar saya gəlmədi,
Fəqət, zərbələrin heç tükənmədi.
Əyri yola qaçdın, düzə gəlmədin,
Məni düşmən bildin, indi isə at,
Mükafatım, mükafatım, mükafat.

***2000***

# DÖZƏ BİLMİRƏM

Ürəyim dolu söz,
Yaralarım göz-göz,
Ömür deyir döz,
Dözə bilmirəm.

Dözüm məni zədələdi,
Zaman məni hədələdi,
Dostlar məni tənələdi,
Düşmən dedi döz,
Dözə bilmirəm.

Ölmək istəyirəm,
Ölə bilmirəm.
İtmək istəyirəm,
İtə bilmirəm..

Bezmişəm həyatdan,
Bezmişəm vaxtdan,
Yaxından atılan oxdan,
Ürək deyir döz,
Dözə bilmirəm.

***2005***

# UNUTMAQ!

Unutmaq istəmək, unutmaq deyil,
Unutmaq olurmu, olub keçəni?
Necə silim mən yaddaşdan səni,
Unut demək asan, unutmaq çətin,
Bu da acı üzü bir həqiqətin.
Mümkünmü unutmaq,
Acılı-şirinli illəri,
Sənli yaşadığım günləri…
Çalın- çarpaz dağları,
Zülm ediyim çağları?!
Necə yada salmayım?
Unutmaqçün olub-keçəni,
Gərək unudam səni.
Unutmaq istəmək, unutmaq deyil!

***2003***

# AĞLARSAN

Dəymə, zalım, paralanmış qəlbimə,
Əlli yerdən yaralanmış qəlbimə,
Məlhəm ola bilmədin ki, dərdimə,
Zaman gələr, yada salıb ağlarsan.

Günümü «göy əskiyə» bükdün sən,
Bir bina tikmişdim, onu sökdün sən.
Xətir-hörmətimi yerə tökdün sən,
Vaxt olar yada salıb ağlarsan.



# MƏNİ

Hər yadıma sən düşəndə,
Qəhər keçdi boğazıma,
boğdu məni.
Dost-tanışın ətrafından,
Düşdüyüm bu vəziyyətim
qovdu məni.

Sual dolu nəzərlərdən
qaçıram,
Səni məndən soruşurlar,
qaçıram,
Suallara cavab vermək
yordu məni…

***2004***

# GÖZLƏMƏ

Çağırmağın əbəsdir,
Qara günlərdən səsdir,
Əzabların daha bəsdir,
Gözləmə məni, gözləmə!

Od tutaram yanaram,
Özüm-özümü danaram,
Soyuğundan donaram,
Gözləmə məni, gözləmə!

Bir də geri dönmərəm,
Ölmək istərəm, ölmərəm.
Daha sənsiz gülmərəm,
Gözləmə məni, gözləmə!

Məni yadlara satdın,
Məni odlara atdın,
Yaralarım qanatdın,
Gözləmə məni, gözləmə!

Üzünə həsrət qoydun,
Diri-diri dərimi soydun.
Zülmündən heç doydun?
Gözləmə məni, gözləmə!

Sınıq qəlbi sınama,
Gəl sən məni qınama,
Naz yaraşır harama?!
Duzu səpmə yarama,
Gözləmə məni, gözləmə!

Ora cənnət olsa da,
Başıma tac qoyulsa da,
Dərdimə əlac tapılsa da,
Gözləmə məni, gözləmə!

***2006***



# QOCALAR

Zaman üzümüzə izin salıbdı,
Nə vermuşdi yavaş-yavaş alıbdı,
İndi bizə həsrətçilik qalıbdı,
Gecəmizi gündüzümüzə qatırıq,
Mürgü döyüb, harda gəldi  yatırıq.

Dövranımız daha bizim bitibdi,
Yaşıdların çoxu ölüb-itibdi.
Coşqu, həvəs, təravət də gedibdi,
Dincliyimizi itiririk-tapırıq,
Tez yorulub, yuxuya əl qatırıq,
Harda gəldi mürgüləyib yatırıq.

Ömrümüzün yazın, yayın ötürdük,
Payızında bar-bəhərin götürdük,
Qışı gəldi, hər nə gördük deyindik,
Yada saldıq xoş günləri, öyündük,
Arzuları ümidimizə  qatırıq,
Xəyalların qucağında yatırıq.

***2008***

# ALTMIŞ YAŞIM

Çağrılmamış qonağım,
Zəif yanan çırağım,
Buz bağlamış bulağım,
Ahıl yaşım, qış yaşım,
Ay mənim altmış yaşım!

Ömrümün son baharı,
Həyatımın axarı,
Yolum enişə sarı,
Ay mənim qoca yaşım,
Mənim ağarmış başım.

A mənim kövrək yaşım,
Gah incik, gah mehriban,
Nəvə soraqlı yaşım,
Arzusu intizarda,
Həsrətə düşmüş yaşım.

Təlatümsüz, tufansız,
Dinclik maraqlı yaşım.
Ay ömrümün yoldaşı,
Gənclik soraqlı yaşım,
A mənim çətin yaşım.

Qəlbi sözlü-söhbətli,
Giley-güzarlı yaşım.
O dünyanın üzünü
Mənə göstərən yaşım,
Mənim ağrılı başım.

Hər işi bitmiş yaşım,
Şuşası getmiş yaşım.
Həsrəti seçmiş yaşım,
A başımın qaxıncı,
Ay ağzımın tıxancı,
Ay mənim altmış yaşım…

***2000***



# QİSMƏT OLMUR

Xatirələr çox acıdı,
Sevinclə dərd bacıdı.
Yaxşı yoldaş baş tacıdı,
Hər kəsə qismət olmur.

Hər şeyə dözmək,
Ölüb-dirilmək,
O dünyanın üzünü görmək,
Hər kəsə qismət olmur.

Gülüb-danışmaq,
Xoşbəxt yaşamaq,
Qoşa qarımaq,
Hər kəsə qismət olmur.

Hər sözü demək,
Hər sözü yemək,
Hər dərdə dözmək,
Hər kəsə qismət olmur.

***2008***

# AĞRI

Ayrılığın mənfur üzü göründü,
Ürək iki bölündü…
Qəlbim oda qalandı,
Könlüm evi talandı.
Qopardı ürəyimin yarasın,
Apardı ürəyimin parasın,
Ürəyimin parası.

İndi ürək ağrıyır,
İçin-için ağlıyır,
Bilə bilmirəm düzü,
Narahatdı harası..
İncidir hansı yarası,
Ağrıyır hansı parası?
Ağrıyır, için-için ağlıyır…

***2000***

# UZAQLAŞDIN, YADLAŞDIN

Tənələrə büründüm,
Qabağında süründüm,
Gözünə pis göründüm,
Yad bir surət yaratdın,
Sən məndən uzaqlaşdın.

Yara, yara üstündən,
Xəbərin yox tüstümdən.
Yıxıb keçdin üstümdən,
Sevgimə sən kin qatdın,
Bax beləcə yadlaşdın.

Dişin çıxdı, dişlədin,
Sirlərimi izlədin,
Harda oldun pislədin,
Sözlərimə söz atdın,
Sən mənimlə yadlaşdın.

Səni sevəni atdın,
Sevməyəni yaratdın.
Riyalara əl atdın,
Özgə aləm yaratdın.
Özgələşdin, yadlaşdın.

***2004***

# KİM OLDU?

Məni məndən alan gözəl,
Səni səndən bəs kim aldı?
Məni oda salan gözəl,
Səni oda bəs kim saldı?

Gözlərimi yolda qoydun,
Dost ikən, əğyarmı oldun?
Nə dindirdin, nə də sordun,
Dindirənin bəs kim oldu?

Həsrətinə çətin dözüm,
Cəfaların düzüm-düzüm.
Sənə acı gəldi sözüm,
Ağlamaqdan kordu gözüm,
Güldürənin bəs kim oldu?

***2005***

## AXTARIRAM

Bir qara buluda dönmüşəm, gülüm
Şıdırığı yağmağa yer axtarıram.
Sinəsi çarpaz dağlı olmuşam, gülüm
Ürək boşaltmağa yer axtarıram.

Qəmindən ahu-zar olmuşam, gülüm
Çiçəklər içində xar axtarıram.
Demirəm mən səndən doymuşam, gülüm
Yanıb-yaxılıram, qar axtarıram.

Mənim könül mülküm talandı, gülüm
Yanmış xarabada kül axtarıram.
Qəlbidaş əlində qalmışam, gülüm
Çılpaq bir qayada gül axtarıram.

## NƏ DEYİM SƏNƏ

Hər işim sinirli, sözüm sinirli,
Yaman qorxuludur söz demək sənə.
Gah düşgün olursan, gah da fikirli,
Fağır deyim sənə, köz deyim sənə?

Heç nədən qaşını çatma, gülümsən,
Şəkərə zəhəri qatma, gülümsən,
Qanımı qaraldıb, peşman olanda,
Boynunu buraraq yatma, gülümsən.

***İstanbul 1994***

# SƏN MƏNİ ATANDA

Günlərim qaraldı,
Güllərim saraldı,
Yollarım daraldı,
Sən məni atanda.

İçimdə vulkan puskürdü,
Tale məni küsdürdü.
Özümü özümə güldürdün,
Sən məni atanda.

Ayağımın altından yer qaçdı,
Günəş yox, Ay yerə işıq saçdı,
Göylərdən ulduzum axdı,
Sən məni atanda.

***2004***

## YADA SALMAYACAĞAM

Odu sönmüş ocağam,
Daha yanmayacağam.
Sənli keçən günləri
Bir də anmayacağam.

Külüm göyə sovruldu,
Canım yandı, qovruldu.
Məyus oldu, qovuldu,
Yada salmayacağam.

Məni heç dindirmədin,
Dərdlərimi bilmədin,
Heç üzümə gülmədin,
Sevincimi bölmədin,
Yada salmayacağam.

***2004***



# ETİBARSIZ

Gözümdən-könlümdən uzaq düşmüsən,
Eşq odunda, gülüm, çoxdan bişmisən.
Deyirsən ki, hamımızdan küsmüsən,
Neyləmişik sənə, ay etibarsız?!

Yalandan, riyadan min don geyirsən,
«Sizsiz darıxıram, gəlin»,- deyirsən.
Bizi itirən də, axtaran da sən,
Gələkmi, qalaqmı, ay etibarsız?!

Ruhum yanındadı, cismim vətəndə,
Vurduğun yaralar göynər sinəmdə,
Bilmirəm nə deyim sənə, gələndə
Neyləyirsən məni, ay etibarsız?!

Könlümün evini viranə qoydun,
Sevdiklərindən sən  nə tez doydun?
Arzu-istəyimi gözümdə qoydun,
Kimlərə qoşuldun, ay etibarsız?!

***2000***

## YAZIĞIM GƏLİR

Gözüm yollarda qalıb,
Gözümə yazığım gəlir.
Dözüm üstümü alıb,
Dözümə yazığım gəlir.
Sözüm qürbətə düşür,
Sözümə yazığım gəlir.
Üzüm üzünə həsrət,
Üzümə yazığım gəlir.
Özüm özümə qənim,
Özümə yazığım gəlir.



## TAYKEŞ

Bir qəmli bülbüləm,
Nəğməmi viranə könlümdə.
İçimdə oxuyuram,
Yabanı gül qoxuyuram.
Başqa bülbüllər kimi
Cəh-cəh vurammadım,
Gülümü axtardım,
Tapammadım.
Sevdam içimdə qaldı,
Həyatdan kam alammadım.
Tayımı tapammadım.
Taykeş yaşadım…
Su oldum, çuxurumu,
Dən oldum, oxurumu,
Çay oldum, axarımı
Tapammadım.
Kimi səadətini tapdı,
Kimi havadan qapdı,
Kimisə, elə mənim kimi,
Taykeş axdı.

***2004***

# TƏLƏSMƏ

Hər kiməmsə, ananam,
Bir kəlməndən qananam.
Hər dərdinə yananam,
Söndürməyə tələsmə.

Hara desən gedərəm,
Gülsəm sənlə gülərəm.
Ayrı qalsam ölərəm,
Ayrılmağa tələsmə.

Hər dərdinə dözərəm,
Nə istəsən edərəm.
Ürəyimi verərəm,
İncitməyə tələsmə.

Gah kövrəyəm, gah mətin,
Gah asanam, gah çətin.
Mənəm varın-dövlətin,
İtirməyə tələsmə.

Bir gedəri qonağam,
Odu sönmüş ocağam,
Gərəyin olacağam,
Ötürməyə tələsmə.

Hər nemətdən şirinəm,
İlk açılan dilinəm.
Qocalsam da, səninəm,
Öldürməyə tələsmə.

***2000***



# DƏRD VERMƏ

*«Güldür ki, güləsən,*
*Sevindir, sevinəsən...»*

Dərd vermə, dərd olaram,
Xatirənə dolaram,
Nə qədər ömrün olsa,
Yaddaşında bir yanğı tək qalaram.

İncitmə, inciyərəm,
Dünyadan incik gedərəm,
Heç nə deмərəm…
Yaddaşına dolaram,
Xatirəndə incik olub qalaram.

Kövrək sevgimə dəymə,
Vaxtsız qəddimi əymə,
Gəl, yadlara güvənmə,
Sənə nisgil olaram,
Xatirənə dollaram,
Yaddaşında nisgil olub qalaram.
Şüşə qəlbim qırarsan,
Qırıq qəlbli olarsan.
Dərdlə tənha qalarsan,
Qəm vermə, qəm olaram,
Yaddaşına dollaram,
Xatirəndə qəmli qalaram.

***1999***

# GETDİ

Bir dəli maralın əsiri oldum,
Məni tonqalara qaladı, getdi.
Heç kəsi saymadı, sözə baxmadı,
Arzu-diləyimi taladı, getdi.

Vətən məhəbbətin qəlbindən sildi,
Qürbəti özünə vətənmi bildi?
Şeytanı dost tutdu, yoluyla getdi,
Məni tapdaq edib, sınadı, getdi.

Düz yola gəlmədi, çətin yol seçdi,
Bu yolda varından-yoxundan keçdi.
Ayrıldıq, günümüz həsrətlə keçdi,
Baş alıb gedəndə qınadı, getdi.

***2000***

# VƏSİYYƏTİM

Bu dünyadan köç edəndə,
Həyata vida deyəndə,
Əbədiyyətə gedəndə,
Dəfnimə yer aramayın,
Axtarmayın!

Açın ana məzarını,
Anam açsın qollarını,
Başımı qoyum sinəsinə,
Qoy, o məni qucaqlasın
Məni anam ağlasın,
Mən ona, o da mənə
Əbədi yas saxlasın!

# DOSTUMA

Yaman ağır gəldi, əziz dost, mənə,
Sənin qardaş adlı ayrılıq dərdin.
Üst-üstə düşübdür dərdimiz yenə,
Mənim Eldar dərdim, sənin bu dərdin.

Biri vəzifəli, birisə qaçqın,
Biri çox hörmətli, birisə çaşqın.
Biri həyatının bahar çağında,
O biri ömrünün bəhər çağında…

Qardaşdır, atadır, oğuldur gedən,
Ölümdür zamanı, məqamı seçən.
Əbədi ayrılıq olduğu üçün,
Yandırır qəlbləri dünyadan köçən.

Möhkəm ol, əzizim, bil ki, cahanda,
Hərənin bir para ömür payı var.
Ora gecikmirlər, vaxtı çatanda,
İlin, ayın, günün saat sayı var.

***1996***

# 70 YAŞIM

Yetmiş deyil, yeddi gündür,
Yetmiş yaşım.
O günlərdən dördü qara,
Vurdu yerə, çəkdi dara,
Bəlalara sala-sala,
Yedin gözəl illərimi.

Göydən ulduz kimi axdım,
Özümü odlara yaxdım.
Uççə gün işığa çıxdım…

Tam xoşbəxtlik yoxmuş demə,
Xoşbəxt günlər, anlar varmış.
Bu üç gün də, çoxmuş demə!
Bu üç gündə gördüklərim,
Mənim xoşbəxt anlarımmış.

***2010***

# QOCALIĞIM

Çalışıram qocalığım ləngisin,
Tez gəlməsin, əldən düşmüş,
Gəlib məni qoy görməsin.
Çalışıram ləyaqətlə
Qarşılayam artıq onu,
Həyatımın əzəl-sonu
Gah saçımı rəngləyirəm,
Gah belimi bərkləyirəm,
Fəqət, yeli gəlib çatır,
Gündə bir az dəyib,
Məni geri atır.

Ömrümün ən vəfalı dostu olacaq,
Gəlib məndən yaşadığım
O illərin hesabını alacaq,
Gəlib əlimdən tutacaq,
Təbiətin qanun yada salacaq,
Azar-bezar olmasa da,
Məni həqiqətlə barışdıracaq.
Bir gün məni bu dünyadan
O dünyaya aparacaq…

***2001***

## OLDUM

Əqidəm təmizlik, saflıq olsa da,
Çətin ətrafıma dözməli oldum.
Məsləkim, xislətim düzlük olsa da,
Yalanlar içində üzməli oldum.

Sevdim təbiəti, gülü çiçəyi.
Tikanlar içində bitməli oldum.
Düz yaşamağa elə can atdım.
Əyri yollar ilə getməli oldum.

Qəddimi düz tutub, alnımı açıq.
Beləcə ömrümü qurmaq istədim.
Fəqət, mühit məni kündələyərək,
Təndirə yapdırdı, bişməli oldum.

İnsanlıq naminə, Vətən naminə.
Harayım göylərə yüksələn zaman,
Nadanlar yanında gülməli oldum,
Namərdlər içində itməli oldum.

***1992***

# SƏN VƏ MƏN

Sən baharın son ayısan,
Mən payızın ilk çiçəyi.
Eşqin məni haqlayıbdır,
Gül açmışam, dil açmışam.

Sən baharın ahıl çağı,
Mən payızın ahılıyam.
Eşqim səni haqlayıbdır,
Gül açmısan, dil açmışam.

Eşqə düşüb tez alışdıq,
Hissimizlə biz yarışdıq.
Eşqim səni, eşqin məni
Yaman yerdə haqlayıbdır.

Sənin eşqin bir gur bulaq,
Mənim eşqim şəlalədir.
Gəl, sevgilim, ayıq olaq,
Düşmən nədir, hicran nədir?

## GÜLBACI

***Xatirənin körpə olanda çoxsaylı ev adlarından biri də Gülbacı idi.***

Gülbacısan, havamsan,
Hər dərdimə davamsan.
Bir sən, bircə balamsan,
Ən ağrılı yaramsan.

Gülümsən, çiçəyimsən,
Hamıdan göyçəyimsən.
Evimin yaraşığı,
Pəncərəmin işığı.

Arzumsan, diləyimsən,
Döyünən ürəyimsən.
Həyatımın mənası,
Şirinsən, şəkərimsən.

Gözümün arzusu sən,
Sözüm sən, söhbətim sən.
İlkin və son beşiyim,
Baxçamdakı gülümsən.

***1975, Xanqərvənd***

# Nəvə sevgisi

# QIZIMA

Bircə qızım Xatirə,
Uyma hər şirin dilə,
İnanırsan hər kəsə,
Kim inciyə, kim küsə.

Bir anana inan sən,
Sözünə bax, düz danış.
Qohum-əqrabanı sev,
El-obaya sən qarış.

Təkcə övlad - bircəsən,
Çox cavansan, incəsən.
Hamı səni çox sevir,
Sən də gərək sevəsən.

***1990***

# NƏVƏ İSTƏYİRƏM

Yaşım ötür, nənə olmaq istəyirəm,
Nə müddətdir, nəvə yolu gözləyirəm.
Həsrət qoyma məni qızım, nəvəyə
Həsrət qalar nəvə bir gün nənəyə.

Mənə nəvə gətir, nəvəmi göstər,
Gün gələr, nəvəm də nənəsin istər.
Nə cavab verərsən onda nəvəmə,
Nənə olmaq istəyirəm nəvəmə.

Ömür vəfasızdır, bu bir həqiqət,
Hər şeyə vaxt qoyub axı təbiət.
Gəl sən qoyma məni həsrət nəvəyə,
Həsrət qalar nəvəm bir gün nənəyə.

Ömür-gün sevinci, şirindir nəvə,
Dövlətdə dəvədir, övladda nəvə,
Dost-tanış yanında görəndə nəvə,
Nənə olmaq istəyirəm mən, nənə.

***2001***

# PƏRVİNİN TOYUNDA

Ata toy tədbirin çoxdan görmüşdü,
Ana, nənə toy paltarın geymişdi,
Gəlin tovuz kimi bəzədilmişdi,
Arzularım dilə gəldi bu toyda.

Xeyir-dua verdi ata qızına,
Ana cehizini yola salmışdı.
Qaynata gənclərə mənzil almışdı,
Ürəyimdən nələr keçdi bu toyda.

Tanış-biliş səni soraqlayırdı.
Sənə də, toy-büsat arzulayırdı.
Bəziləri məni hey qınayırdı,
Ovqatım təlx idi bu gün bu toyda.

Üzlər də, gözlər də, suallı idi,
Mənimsə gözlərim xəyallı idi.
İçimdəki mənim, zavallı idi,
Hamıdan küsmüşdüm bu gün bu toyda.

Boğazımda tıxanc, içimdə tufan,
Ağ qibtə hissini, yaşadım bir an.
Belə toy qəlbimdən keçdiyi zaman,
Gözlərim boşaldı, doldu bu toyda.

Üzüm gülsə də, içim yanırdı,
Nənələr, nəvələr hey oynayırdı.
Arzular, istəklər coşub-daşırdı,
Yaşıdlarım nənə idi bu toyda.

Arzular gəmisinin biletsiz yolçusuydum,
Bu toy məclisinin mən də bir ölçüsüydüm.
Ağlayan gözlərimin görünməyən süsüydüm,
Öz acı taleyimi daşıyırdım bu toyda.
Nəvəsiz günlərimi yaşayırdım bu toyda.

***2002***



# NƏVƏLƏRİM FƏRƏH, FƏRİD, HUMAYA

Fərəh mənim gülümdü,
Nə lalədir, nə nərgiz,
Bütün güllərin şahı,
Mənim qızılgülümdü.

Fərid vuran ürəyim,
Mənim arzu-diləyim,
Humay mənim həyatım,
Uçmaq üçün qanadım.

Biri güldür-çiçəkdir,
Biri ürək-diləkdir.
Biri də ki, həyatım,
Kiçicik kainatım.

***2010***

# DANMALI OLDUM

İllər ilə nəvə yolu gözlədim,
Yalanlar içində yanmalı oldum.
Bir gülüzlü nəvəm dünyaya gəldi,
Nənə olduğumu danmalı oldum.

Fərəh nəvəm mənə fərəh gətirdi,
Fərəhim də dərd-sərimi itirdi.
Dedilər ki, gizli saxla bu sirdi…
Bütün oyunları qanmalı oldum,
Nənə olduğumu danmalı oldum.

Yığıldı başıma qohum-qonşular,
Birisi danladı, biri qınadı.
Hələ şəbədə də mənə qoşdular,
Çox çətin vəziyyətdə qalmalı oldum,
Nənə olduğumu danmalı oldum.

Yalan danışmaqla yox ikən aram,
Yalanlar uydurub, çaşmalı oldum.
Nənələr, nəvələr çox olan yerdən,
Birtəhər vurnuxub qaçmalı oldum.
Nənə olduğumu danmalı oldum.

***2002***

# NƏVƏMİ GİZLƏTDİLƏR

Nənə olmaq istədim,
Nəvə yolu gözlədim,
Ürəyimə dağ çəkdilər,-
Nəvəmi gizlətdilər.

Bilmədim ağlayım, gülüm,
Sevincimi kimlə bölüm?
Dilim-dilim oldu dilim,
Ürəyimə dağ çəkdilər,
Nəvəmi gizlətdilər.

Ağa qara dedilər,
Mənliyimi yedilər.
Mənə zülüm etdilər,
Nəvəmi gizlətdilər.

Fitnə bağrımı yardı,
Sözüm içimdə qaldı.
Şər-xata üstümü aldı,
Ürəyimə dağ çəkdilər,
Nəvəmi gizlətdilər.

***2002***

## XƏLVƏTCƏ

Nəvəm gəldi xəlvətcə,
Nənə oldum xəlvətcə.
Rəfail pərişandı,
Baba olub xəlvətcə.

Başına necə dönüm,
Sevinci kimlə bölüm,
Yaşayım, yoxsa ölüm,
Nəvəm gəldi xəlvətcə.

Mənə qalan səbrdir,
İlkimdi, təkdi, birbir,
Başdan-ayağa sirdir,
Nəvəm gəldi xəlvətcə.

Balacadı, balaca,
Tapmacadı, tapmaca.
Nəvəm oldu xəlvətcə,
Nənə oldum xəlvətcə.

***2002***

# SEVİNC

Nənə oldum, sevincimi
Bir kimsəyə deyəmmədim.
Ürəkdən keçən sevinci,
Bir kimsəylə böləmmədim.

Fərəhimdən qanad açdım,
Heç bir səmtə uçammadım.
Namərd kəsdi yollarımı,
Mən bu dərddən qaçammadım.

Sevinc kədərlə üz-üzə,
Sevinc necə çıxmaz üzə?
Kədəri gizlətmək olar…
Sevinci gizlətmək necə?

***2002***

# GİZLİNCƏ

Fərəh qoydum adını,
Bildim nəvə dadını,
Sevindim incə-incə,
Fərəhləndim gizlincə.

Dərdlərimi unutdum,
Göz yaşımı qurutdum,
Məni nənə edincə
Öyünürəm gizlincə.

Nübarımın nübarı,
Balamın bala payı,
O dünyaya gəlincə,
Mən yanıram gizlincə.

Heç bilmirəm neyləyim,
Sirri kimə söyləyim,
Nə edim, nə eyləyim?
Məhv oluram gizlincə.
Sevinirəm gizlincə.

***2002***

# SEVİNC BÖLÜNƏRSƏ ...

Nənə oldum, sevincimi
gizlətsəm də, ata bilmədim.
İçim yandı, nənələrin sevincinə,
Mən nənəlik sevincimi
qata bilmədim.

Çox çətindi
bu sevinci pərdələmək,
Çox çətindi
bu sevinci dərd eləmək.
Mümkün deyil,
bir namərdi mərd eləmək…
Tələ qurub,
tor atdılar, düşüb-çıxdım,
qaça bilmədim.

Sevincimi bölə bilsəm,
Kimsəyə söyləyə bilsəm…
Bu sevincin kədərinə axdım,
Yandı bağrım bu oddan
qaça bilmədim.

Sevinci bölməyə yer axtar,
Sevinc bölünərsə ikiqat artar.

***2002***

# FƏRƏH

Balaca Fərəh, ay Fərəh,
Bircə üzə çıx görək.
Evin yıxılsın, fələk,
Hardan əsdi bu külək?!
Başımıza gəldi kələk,
El-obaya nə deyək?

Ömür keçib, gün keçib,
Qocalıq bizi seçib.
Kecikmisən, sən Fərəh,
Barı üzə çıx görək.

Çox şeylərə dözmüşük,
Səni çox gözləmişik.
Bu dərdi kimlə bölək?!
Artıq dözməyir ürək.

Həyatdan əlimizi üzək,
Bəlkə bu dərddən ölək?
Bu dərdə necə dözək?
Gizli qalma, sən Fərəh.

***2002***

## NƏVƏMİN YAŞI OLDU

Nəvəmin yaşı oldu,
Qəlbim fərəhlə doldu.
Sevinc içimdə qaldı,
Rahatlığım pozuldu.

Ad günü mənsiz oldu,
Sevincdən məhrum oldum,
Elə bil məzlum oldum,
Qəhərlənib boğuldum.

Yanında ola bilmədim,
Nəvəmin iki yaşında.
Kimlər əyləşdi görən,
Masasının başında?!

## BU BALACA NƏVƏMİN

Bu balaca nəvəmin,
Talehinə biganə qalmayın.
Fərəh mənim fərəhim,
Urəyinə xal salmayın.

Gec açılmış gülümdü,
Payız çiçəyim mənim.
Ağzımda şirin dilimdi,
Arzu-diləyim mənim.

***2002***

# FƏRƏH PAYIM

Deyirlər arabada
        ayaq üstə gedirsən,
Çoxlu-çoxlu gülürsən,
        hamını mat edirsən.
İştahan da yaxşıdır,
        nə versələr yeyirsən.
Mənim ömür sevincim,
Fərəhim, fərəh payım.

Deyirlər bütün günü
        «nənə», «nənə» deyirsən,
Totuq ayaqlarınla,
        yerimək istəyirsən.
Heç kimdən çəkinmirsən,
        kim çağırsa gedirsən.
A şirin nəvə payım,
Fərəhim, fərəh payım.

Deyirlər hovuzlarda
        balıq kimi üzürsən,
Bir yerdə durmayırsan,-
        hara gəldi girirsən.
Bəzən sözə baxmırsan,
        bic-bic göz də süzürsən,
Mənim günəşim, ayım, -
A şirin nəvə payım.

***2003***

# FƏRƏHİM

Fərəhim Fərəhdi,
Həm arzu, həm diləkdi.
Hər dərdimin çarəsi,
Ürəyimin parası.
Dağların lalasıdır,
Balamın balasıdır.

Mənim nəvəm Fərəhdi,
Ətir saçan çiçəkdi.
Körpəcə bir mələkdi
Dağdan əsən küləkdi,
Bir balaca ürəkdi,
Nənəsinə gərəkdi.

Arzusunda çox oldum,
Nəvə payımdı mənim.
Çox gözlədim yolunu,
Payız çiçəyim mənim
Ömrümə işıq saçdı,
Nənə olmağım mənim.

***2002***

## NƏNƏ OLDUM

Ömrümün payızında nənə oldum,
Payızda nəvəm oldu,
Payızda nənə oldum.
Qismət oldu, nəvəmə ad qoydum:

Fərəh qoydum adını,
Bildim nəvə dadını.

«Bala baldan şirindi»,
Bala bal dadırsa,
Nəvə də bala dadır.
Balamın balasıdır,
Ömrümün mənasıdır.



# DÖZMƏDİM

Ayrı düşdüm nəvəmdən,
Ruhum çıxdı bədəndən.
Üç il dözməli oldum,
Mən dözdüm, can dözmədi.

Həsrət qaldım üzünə,
Ürək baxmır sözümə,
Danışdım öz-özümə,
Mən dözdüm, can dözmədi.

Dərdi saldım içimə,
İçim düşdü həkimə.
Sirr vermədim heç kimə,
Mən dözdüm, can dözmədi.

***2005***

# NƏNƏ DEYİR

***Nəvəm Fərəhə***

Bütün günü «Nənə» deyir,
Tutub əlimdən, «gəl»,- deyir
«Nənə, bax, nənə, bax, nənə, gör,
«Nənə, niyə, axı niyə», «niyə»…
Bütün günü sual verir, -«niyə?» deyir.
Cavab alıb, hər cavaba-
«Niyə?»,- deyir, axı, niyə?

Niyələrə cavab tapmaq,
Mənə yaman çətin oldu.
Böyü, gülüm, xoşbəxt yaşa!
Niyələrə cavab tapmaq,
Bəlkə sənin qismətin oldu.

***2006***

# NƏVƏM FƏRİD ÜÇÜN

Hər şeyə fikir verir,
Gözlərini zilləyir.
Hər gördüyü əşyaya
Nənə, nənə, «bax»,-deyir.

Hər nənə deyəndə,
Əllərimi bərk sıxır,
Elə bil ki, ağzından
Təzə bir nənə çıxır.

Danışmaqdan doymayır,
Dil ağıza qoymayır.
Qorxu nədir, bilməyir,
Verdiyi suallara
Tezcə cavab istəyir.
O kiçicik ürəkdə,
Nələr var, ax, nələr var.
Böyük-böyük arzular,
Ülvilik, sevgilər var.
Yaxınlara məhəbbət,
Gözəlliyə hörmət var.

# MƏNSUR ŞEİR

*Nəvəm Fərəh üçün*

İstəyir onunla yoldaşlıq edəm,
Onunla yol gedəm,
Hara getsə gedəm.
Hələ bilmir o, bilmir
mənim yolum tükənib.
mənim yolum arxada,
Onun yolu qarşıda.
Mən yolun sonundayam,
O, yolun əvvəlində.
Mən arxaya baxıram,
Hər şey aydın görünür.
Ona isə qarşıda,
Sirli bir yol görünur.
Sirli bir yola baxır.

Ömrümdən bir addım qalıb…
O addımı atacam.
Əbədiyyətə çatacam.
Sən irəli gedəcəksən,
Yolu davam edəcəksən.
Ömrün nurlu olsun,
Sən dünyaya,
dünya sənə vurulsun.

## NƏVƏM HUMAYA

Sən elə zamanda gəldin dünyaya,
Ömrümün qışının oğlan çağıydı.
Nə gücüm qalmışdı, nə də hünərim,
Ağrılı-acılı keçən günlərim,
Dərd-qəmimin doğulan çağıydı.

Sən elə zamanda gəldin dünyaya,
Ömrümün qüruba enən çağıydı.
Baban bu dünyadan təzə köçmüşdü,
Mənimsə həyatdan üzüm dönmüşdü.

Sən elə zamanda sevinc gətirdin,
Mənim dərdlərimin quduran çağıydı…

***2009***

# Zarafatyana

# ÖZÜMÜNKÜLƏR

Qəlbi kinli, küdurətli
«Şeytan» məni çox hərlədi.
Uyub onun fitnəsinə
Biri məni zədələdi.

Düşdüm əməliyyatlara,
Sağlamlığım getdi hara?
Məni çox çəkdilər dara,
Ömür məni hədələdi.

Düşdüm çətinlər içinə,
Mühit məni ləkələdi.
Ümid bəslədim birinə,
O da məni tikələdi.

Qohum-qardaşcanlı oldum,
Yollarında ürək qoydum.
Axır, hamıdan doydum,
Hərə bir cür kəkələdi,
Hərə bir cür zədələdi.

***2005***

## TANIMADIM İLANI

İçimdəki qəhərdən
Tanımadım ilanı.
Dilindəki zəhərdən
Tanımadım ilanı.

Boğazıma dolandı,
Ürəyimə yol aldı.
Məni dillərə saldı,
Mənə bir dözüm qaldı,
Tanımadım ilanı.

Ömrümə zədə vurdu,
Gündə bir tələ qurdu.
Nə tutuldu, nə durdu,
Etdi rüsvay-cahanı,
Tanımadım ilanı.

Süründü, inandılar,
İlanlığın dandılar.
Yazıq deyib andılar.
Məhv elədi bu canı,
Tanımadım ilanı.

Zəhərinə göz yumdum,
Ondan mərhəmət umdum.
Evimdə məclis qurdum,
O qopardı tufanı,
Tanımadım ilanı.

Axırıma çıxdı o,
Ürəyimi sıxdı o.
Evimi də yıxdı o,
O eylədi talanı,
Tanımadım ilanı!

***2007***



# BAŞ

Baş bədəni bəzəyir,
Baş dünyaya bənzəyir.
Gecələri, gündüzləri var,
Əyriləri, düzləri var.
Buludlar topalaşır,
Baş qarışır
Şimşək çaxır.
Yağış yağır,-
Baş açılır.
Bəzən baş yekə,
təhlükə, ləkə,
Bəzən yorulur,
Daşa dəyir işləyir,
ya da sınır,
Xarab olur, işləmir,
sönür, dönür,
Baş tutulur,
Boşalır, dolur.
Baş küləklənir, hərlənir,
Başda düşüncələr sellənir,
Baş ağrıyır, çatlayır.
Anlayır, anlamayır,
Başa soyuq dəyir, səylənir.
Baş qızır, yolun azır,
Başa qan sızır,
«At təpir», əyilir,
Məğrur olur, əyilmir.

Baş işıqlı-yaraşıqlı,
Baş donur, baş qorunur,
Üşüyür, aşağı düşür,
yastıqdan sürüşür…
Baş boş, baş dolu,
Başdan başlayır həyat yolu.
Baş yaşayır, yaşadır…
Baş ürəyin baş yoldaşı,
Qoruyun başı.



# İÇİNDƏ

Yekəbaş olmasam da,
Başım yekə göründü
Yekəbaşlar içində.
Mənliyim, heysiyyatım
Heç gözə görünmədi
«Mamırbaşlar» içində.

Bir ətirli çiçəkdim,
Min arzu, min diləkdim.
Taleyin hökmü ilə
Kol-kos içində bitdim.
Eşşəklərə yem oldum,
Qanqalların içində.

Od idim, külə döndüm,
Zil idim, bəmə endim.
Polad idim, əridim,
Bəs dedikcə kiridim,
Qəlbidaşlar içində…

# İLAN

İlan məni dişlədi,
Zəhər ruha işlədi.
Yazıq bir görkəm aldı,
Hamı məni pislədi.

Dil çıxartdı, inandım,
Zülmü hamıdan dandım.
Əfi məni dişlədi,
Dişləməkdi xisləti.

Zəhərlidir rişəsi,
Qəlb sındarmaq nəşəsi.
Sayan deyil heç kəsi,
Dişləməkdi peşəsi.

Mənəviyyatdan kasıb,
Başını mamır basıb.
Zəhər ilə dostlaşıb,
Zəhər zülmə qarışıb.
Harda oldu dişlədi,
Dişləməkdi xisləti.

Yüz dəfə məni satdı,
Ağ günümü qaraltdı,
Nə tutdu, nə də atdı.
Sinirimi dişlədi,
Dişləməkdi xisləti.

Məndən könül istədi,
Ömür verdim sisdədi.
Sirr sözünü gizlədi,
Ürəyimi dişlədi ,
Dişləməkdi xisləti.

Gah söndüm, gah alışdım,
Taleh idi, barışdım.
Dözənlərə qarışdım,
İçində kin bəslədi.
İlan məni dişlədi,
Dişləməkdi xisləti.

***2005***

# AİLƏİMİZİN BÜRCLƏRİ VƏ İLLƏRİ

Bu «Meymun»un oynundan,
Heç «Buğa» da baş çıxarmaz.
«Dolça»nın tökdüyü sudan,
«At» islanar, o, islanmaz.
«Əjdaha» qarşısında diz çökər,
«Balıq» lal-dinməz ötüşər.
«Meymun» oyunun oynayar,
Nə usanar, nə də doyar,
Nə də xasiyyətin yerə qoyar…



# ÜNVANLI
# BAYATILAR

Bu dünya əyləncədi,
Bəxtin gətirincədi.
Ölüm Allah əmridi,
Ayrılıq işgəncədi.

Qarabağda  talan var,
Şuşada qan salan var.
Xəbər verin elimə,
Qanı yerdə qalan var.

Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gələn var, nə gedən,
İndi yollar bağlıdır.

Mən aşiqəm süzmərəm,
Dəryalarda üzmərəm,
Sən olmayan məclisdə,
Qol götürüb süzmərəm.

Əzizinəm üzmərəm,
Qönçə gülü üzmərəm.
Əgər məndən ayrılsan,
Ayrılığa dözmərəm.

Əzizinəm süzmərəm,
Muncuq sapa düzmərəm.
Hər mənə göz qoyana,
Gözlərimi süzmərəm.

Əzizinəm görəydim,
Saçlarını hörəydim,
Sən qapıdan girəydin,
Mən üzünə güləydim.

***2009***

# ŞƏHİDLƏRƏ

Əzizim nisgil ağlar,
Gözlərdə nisgil ağlar.
Xalqı nisgilə salan,
Vaxt gələr nisgil ağlar.

Dağda dağım var mənim,
Yaman ahım var mənim.
Ah çəkdim, yer titrədi,
Qoy tutsun ahım mənim.

Elimə qara yaxan,
Çörəyə nankor baxan,
Bir elin qəzəbindən
Çətin qurtarar yaxan.

Xalqı bəndə saldılar,
Dərin quyu qazdılar.
Ləkə yaxıb adına,
Kənardan şadlandılar.

Dərd verən, dərdin olsun,
Elin tari-mar olsun.
Xalqıma dərd verənin,
Torpağı qanla dolsun.

Mən aşiqəm çəməndə,
Yaman dərd var sinəmdə.
A xalqı dərdə salan,
Dərdə düşəsən sən də.

Cavanları qırdılar,
Bizi oda saldılar.
Əli qana batanlar,
Lənətlənib qaldılar.

İçimdə sözüm ağlar,
Sətirdə yazım ağlar.
Şəhid gedən gənclərə
Baharım, yazım ağlar.

Cavanlar şəhid oldu,
Gözlər boşaldı, doldu.
Xalqın Dağüstu bağı,
Xiyabanları oldu.

Məzarınız başında
Baş əydikcə xalqımız,
Mərdlik meydanlarında
Zəfər çalsın arzunuz!

# Mündəricat

MÜƏLLİFDƏN ..... 3
ÖN SÖZ ƏVƏZİ ..... 5

**SEVİNCİM, KƏDƏRİM AZƏRBAYCAN**

ULU BAYRAQ ..... 10
ŞUŞAM ..... 11
GEDİRƏM ŞUŞAYA! ..... 12
ŞUŞADA ..... 13
GÖZ YAŞLARI ..... 14
TALE YAZISI ..... 15
XƏYALLAR ..... 16
AĞLAMA ..... 17
NƏ GÖZƏLDİR! ..... 18
ŞUŞALILAR ..... 19
QARABAĞDAN DANIŞDIM ..... 20
ŞUŞAM OY! ..... 21
ŞUŞA BİZDƏN KÜSÜB ..... 22
QARABAĞIN MARALISAN? ..... 23
ŞUŞA DEYİB AĞLADIM ..... 24
ON İL ŞUŞASIZLIQ ..... 25
20 YANVAR ..... 26
QARABAĞLIYAM ..... 27
BİLMİRƏM ..... 28
DÜNYANIN NƏ VECİNƏ ..... 29
ŞƏHRİYARANƏ ..... 30
HEYDƏR BABAYA ŞİKAYƏT ..... 31
ERMƏNİ GƏZİR ..... 32
ŞUŞADAN GƏLƏN YOXDU ..... 33
NAĞILA DÖNDÜ ŞUŞA ..... 34
ORDAN ŞUŞA GÖRÜNÜRMÜ? ..... 35
QURBAN OLUM ..... 36
UNUTMAYIN ..... 38
«ŞVARTSVALD» MEŞƏSİ ..... 39
SƏN MƏNİ AXTAR ..... 42

**DÜNYADI DƏ**

DÜNYA BELƏ DÜNYADIR ..... 44
DÜNYA DURACAQ DEYİL ..... 45
DÜNYADI DƏ, YAŞAYIRIQ ..... 47
GƏLİMLİ – GEDİMLİ DÜNYA ..... 48
TƏZƏ VƏ TƏKRAR ..... 49
XARIBÜLBÜL ..... 50
SÖZ ..... 51
DƏRD ..... 52
DÜNYA ..... 53
BAXA BİLMİRƏM ..... 54
OLMAZ ..... 55
DÜNYA GÖZƏL DÜNYADI ..... 56
BURA QƏBRİSTANLIQDIR ..... 57
BU DÜNYA ..... 58

**AYRILIQ, HƏSRƏT NƏĞMƏSİ**

BABAMIN AYRILIQ MAHNISI ........ 60
ANAMI İSTƏYİRƏM ........ 61
ANAM ........ 62
BABAMA ........ 63
BABAM OY! ........ 64
ATAM ŞAMİL MÜƏLLİMƏ ........ 65
ANA! ........ 66
HARDASAN, ANA?! ........ 67
QAYIT, ANA! ........ 68
QOCA, QARI DEDİLƏR… ........ 69
YAZILMIŞ KİTAB ........ 70

**QƏLB AĞRILARI**

MƏHƏBBƏT ÖLƏNDƏ ........ 72
MARALIM ........ 73
SINDI, SOLDU, SÖNDÜ ........ 74
GECƏLƏR ........ 75
MƏNSUR ŞER ........ 76
DİL LAL OLUR ........ 77
BULUD ........ 78
SƏNSƏN ........ 79
HƏSRƏT QALARSAN, ........ 79
HƏSRƏT QALARSAN, YADA SALARSAN… ........ 80
GƏNCLİYİM ........ 81
ÖLÜM ........ 82
DURNA OLUB UÇACAĞAM ........ 83
KİM APARACAQ? ........ 84
NEY SƏSİ ........ 84
MƏNİM İLK MƏHƏBBƏTİM ........ 86
MƏNİM ÖMÜR KİTABIM ........ 87
NƏDİR? ........ 89
GEDƏ BİLMƏDİM DALINCA ........ 89
KÖNÜL VERDİM VƏFASIZA ........ 90
PAYIZ ÇİÇƏYİM ........ 92
YUXUM QAÇDI ........ 93
GETDİ ........ 94

**ÖMÜR YOLLARI**

AY ÖMRÜMÜN SİRDAŞI ........ 96
ÖMRÜMÜN SÖNDÜ ÇIRAĞI ........ 97
NƏDƏN? ........ 98
SƏNİNLƏ SƏNSİZ ........ 99
MƏNİM BİR EŞQİM VAR ........ 100
GEC OLACAQ ........ 101
ALLAH BALEYİ SAXLASIN! ........ 102
ALLAH BAĞIŞLASIN ........ 103
ÜMÜD ........ 103
ÜMÜD MÜƏLLİM ........ 105
SOYUQ BAXIŞ ........ 106
PEŞMAN GƏZDİM ........ 107
YARIM DEMƏ ........ 108
OLSUN ........ 110
NƏ DEYİM ........ 112

ÜRƏYİNDƏ YOLLAR AÇDIN ŞEYTANA ........ 114
ARZUM ........ 115
OLMUŞAM ........ 116
MÜKAFATIM ........ 117
DÖZƏ BİLMİRƏM ........ 118
UNUTMAQ! ........ 119
AĞLARSAN ........ 120
MƏNİ ........ 120
GÖZLƏMƏ ........ 122
QOCALAR ........ 123
ALTMIŞ YAŞIM ........ 125
QİSMƏT OLMUR ........ 126
AĞRI ........ 128
UZAQLAŞDIN, YADLAŞDIN ........ 129
KİM OLDU? ........ 130
AXTARIRAM ........ 131
NƏ DEYİM SƏNƏ ........ 132
SƏN MƏNİ ATANDA ........ 133
YADA SALMAYACAĞAM ........ 134
ETİBARSIZ ........ 134
YAZIĞIM GƏLİR ........ 136
TAYKEŞ ........ 136
TƏLƏSMƏ ........ 138
DƏRD VERMƏ ........ 139
GETDİ ........ 141
VƏSİYYƏTİM ........ 142
DOSTUMA ........ 143
70 YAŞIM ........ 144
QOCALIĞIM ........ 145
OLDUM ........ 146
SƏN VƏ MƏN ........ 147
GÜLBACI ........ 148

**NƏVƏ SEVGİSİ**

QIZIMA ........ 150
NƏVƏ İSTƏYİRƏM ........ 151
PƏRVİNİN TOYUNDA ........ 152
NƏVƏLƏRİM FƏRƏH, FƏRİD, HUMAYA ........ 154
DANMALI OLDUM ........ 155
NƏVƏMİ GİZLƏTDİLƏR ........ 156
XƏLVƏTCƏ ........ 157
SEVİNC ........ 158
GİZLİNCƏ ........ 159
SEVİNC BÖLÜNƏRSƏ ........ 160
FƏRƏH ........ 161
NƏVƏMİN YAŞI OLDU ........ 162
BU BALACA NƏVƏMİN ........ 162
FƏRƏH PAYIM ........ 163
FƏRƏHİM ........ 164
NƏNƏ OLDUM ........ 165
DÖZMƏDİM ........ 166
NƏNƏ DEYİR ........ 167
NƏVƏM FƏRİD ÜÇÜN ........ 168
MƏNSUR ŞEİR ........ 169
NƏVƏM HUMAYA ........ 170

**ZARAFATYANA**

ÖZÜMÜNKÜLƏR ........ 172
TANIMADIM İLANI ........ 173
BAŞ ........ 174
İÇİNDƏ ........ 177
İLAN ........ 178
AİLƏİMİZİN BÜRCLƏRİ VƏ İLLƏRİ ........ 180

**ÜNVANLI BAYATILAR**

ŞƏHİDLƏRƏ ........ 183
AİLƏ ALBOMUNDAN ........ 185

**SVETLANA ŞAMİL**

# GEDİRƏM ŞUŞAYA...

*(Təkrar nəşr)*

*Çapa imzalanmışdır: 27.05.2022*
*Kağız formatı: 84x108 1/32*
*H/n həcmi: 6,37 ç.v.*
*Sifariş: 106*
*Sayı: 100*

*"İmza" Nəşrlər Evində*
*çap edilmişdir.*
*Ünvan: Bakı şəh. Mətbuat prospekti*
*529-cu məhəllə*
**Telefon: (012) 538-18-87, (050) 263-16-16**
**E-mail: imza_nesrler_evi@mail.ru**